**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**XƏZƏR UNİVERSİTETİ**

**"İqtisadiyyat və Biznes yüksək təhsil" fakültəsi**

**"Maliyyə" kafedrası**

Əlyazma hüququnda

**İsgəndərov Qismət Felman oğlu**

# " İnvestisiya cəlbediciliyinin artırılmasında vergi siyasətinin rolu. Azərbaycan nümunəsində"

**İxtisas:** **Biznesin təşkili və idarə edilməsi:Maliyyə üzrə**

**İxtisaslaşma:** **Maliyyə**

# MAGİSTR DİSSERTASİYASI

**Rəhbər: phd Şəhriyar Muxtarov**

**BAKI-2023**

# XÜLASƏ

İnvestisiya cəlbediciliyinin artırılması hər bir dövlətin iqtisadi maraqlarının təmin edilməsində vacib olan məsələlərdən hesab olunur.

Normal investisiya mühitinin yaradılması dövlətin iqtisadi, o cümlədən investisiya siyasətinin əsas vəzifələrindən biri kimi özünü göstərir. İnvestisiya cəlbediciliyinin artırılmasında fərqli-fərqli dövlətlərin fəaliyyət mexanizmləri mövcuddur. Əsas olaraq qeyd etmək lazımdır ki, investisiya ilə vergi siyasəti bir-biri ilə qarşılıqlı əlaqədə olarsa investisiya axınları daha sürətli olar. İnvestisiya axınlarının daha çox olduğu ölkələrdə vergi güzəştləri və vergi dərəcələri aşağı olur, dövlətin təşkil etdiyi proqram, seminar və layihələr investisiya yatırımlarının düzgün idarə edilməsində köməklik göstərir. Xarici investorların ölkəyə cəlb edilməsi üçün vergi siyasətinin düzgün tənzimlənməsi , vergi güzəştlərinin və vergi azadolmalarının tətbiqi əhəmiyyətli rola malikdir. Müxtəlif vergi siyasətləri fərqli investisiya cəlb etmə strategiyalarını təmsil edə bilər. Xarici investorlar bir başqa ölkəyə investisiya yatıran zaman ilk olaraq həmin ölkənin vergi qanunvericiliyini təhlil edir, vergi sistemindəki yenilikləri analiz edir, son 3-5 illik dövürdə vergi qanunvericiliyində hansı dəyişikliklərin olması araşdırılıb müqayisə edilir. Yuxarıda qeyd olunan faktorlarla yanaşı , investisiya yatıran sərmayəçilər vergi sisteminə nəzər salmaqla yanaşı həmin ölkədə iqtisadi-siyasi sabitliyin hansı səviyyədə olmasını araşdırır, regional sabitliyin nə dərəcədə olduğunu müəyyən edirlər, ticari əlaqələrin inkişafı üçün uyğun tranzit yollarının kəşfi, əlverişli logistik əlaqələrin inkişafına yönəlik prosesləri araşdırırlar.

İnvestisiya yatırımları müxtəlif sahələri əhatə edə bilər. Bunun üçün investorlar yatırım edən zaman həmin regional ərazilərin uyğunluğunu müəyyən edir, həmin sahəyə yatırım edən zaman qazanacaqları faydaları əvvəlcədən analiz edib nəticə çıxarırlar. Bəzən ərazi investisiya yatırımları üçün əlverişli ola bilər, lakin həmin ərazinin geosiyasi vəziyyətinin gərgin və təhlükəli olması investorların ora yatırım etməsinin qarşısında əngəl yaradır. Məsələn ərəb dövlətlərindən olan Suriyə, İraq, Əfqanıstan kimi ölkələr investisiya yatırılması üçün əlverişli olsa da lakin siyasi vəziyyətə görə investorların maraqlarına uyğun deyildir.

Dissertasiyanın birinci fəslində investisiyanın mahiyyəti və nəzəri əsasları haqqında araşdırmalar aparılmış , əlverişli investisiya mühitinin formalaşmasında dövlətin rolu nədən ibarətdir , investisiya cəlbediciliyinin artırılmasında hansı faktorlardan istifadə etmək lazımdır, investisiya mühitinin inkişaf etdirilməsi və xarici investorları ölkəyə cəlb etmək üçün hansı

nüansları diqqət mərkəzində saxlamaq lazımdır və dövlət tərəfindən hansı vergi güzəştləri edilməlidir. İkinci fəsildə  müasir dövürdə vergi siyasətinin investisiya mühitinə təsirləri araşdırılmış ,  vergi siyasətinin investisiya axınlarına nə kimi mənfi və müsbət təsirləri vardır, vergi güzəştləri tətbiq edən ölkələrlə vergi güzəştləri tətbiq etməyən ölkələr arasında investisiya yatırımlarının faiz göstəriciləri yaratdığı fərqlərin müqayisə olunaraq analiz edilməsi , iqtisadiyyatın tənzimlənməsində vergi siyasətinin rolunun qiymətləndirilməsi ,  mənfi və müsbət xüsusiyyətlərinin araşdırılması , dövlətin tətbiq etdiyi vergi endirimləri ,  vergi güzəştləri ,  vergi azad olmalarının investisiya cəlbediciliyinə təsirinin təhlilləri araşdırılmışdır. Üçüncü fəsildə isə ədəbiyyat xülasəsi verilmiş ,  bu günə qədər mövzu haqqında araşdırılmalar və nəticələr təhlil olunmuşdur. Ekonometrik metodologiya , verilənlər bazası və ekonometrik qiymətləndirmənin şərhi analiz edilmişdir.

# SUMMARY

Increasing investment attractiveness is considered one of the important issues in ensuring the economic interests of every state.

Creating a normal investment environment is one of the main tasks of the state's economic and investment policy. Different states have different mechanisms of action to increase investment attractiveness. It should be noted that if investment and tax policy interact with each other, investment flows will be more tax benefits and tax rates are lower in countries with more investment flows, programs, seminars and projects organized by the state help in the proper management of investment investments. Proper adjustment of tax policy, application of tax benefits and tax exemptions to attract foreign investors to the country has an important role. Different tax policies can represent different investment attraction strategies. When foreign investors invest in another country, they first analyze the tax legislation of that country, analyze the innovations in the tax system, what changes in the tax legislation in the last 3-5 years are examined and compared. In addition to the above-mentioned factors, investors who invest, besides looking at the tax system, examine the level of economic and political stability in that country, determine the extent of regional stability, discover suitable transit routes for the development of commercial relations, and facilitate the development of logistical relations they investigate directed processes.

Investments can cover different areas. For this, investors determine the suitability of those regional areas when investing, analyze the benefits they will gain when investing in that area and draw conclusions in advance. Sometimes the area can be favorable for investments, but the geopolitical situation of that area is tense and the fact that it is dangerous creates an obstacle for investors to invest there. For example, countries such as Syria, Iraq, and Afghanistan from the Arab states are favorable for investment, but due to the political situation, they are not in the interests of investors.

In the first chapter of the dissertation, research was conducted on the essence and theoretical foundations of investment, what is the role of the state in the formation of a favorable investment environment, what factors should be used to increase investment attractiveness, what nuances should be focused on in order to develop the investment environment and attract foreign investors to the country, and the state what tax concessions should be given. In the second chapter, the effects of tax policy on the investment environment in the modern era are investigated, what negative and positive effects tax policy has on

investment flows, and the differences between the countries that apply tax concessions and the countries that do not apply tax concessions are compared and analyzed. assessment of the role of tax policy in the regulation of the economy, examination of its negative and positive features, analyzes of the impact of tax reductions, tax concessions, and tax exemptions on investment attractiveness applied by the state were investigated. In the third chapter, a summary of the literature was given, researches and results on the topic were analyzed so far. Econometrics methodology, database and interpretation of econometric assessment were analyze

# АННОТАЦИЯ

Повышение инвестиционной привлекательности считается одним из важных вопросов в обеспечении экономических интересов каждого государства.
Создание нормальной инвестиционной среды является одной из основных задач экономической и инвестиционной политики государства. Разные государства имеют разные механизмы действия по повышению инвестиционной привлекательности. Следует отметить, что при взаимодействии инвестиционной и налоговой политики инвестиционные потоки будут больше налоговых льгот и налоговые ставки ниже в странах с большими инвестиционными потоками, программы, семинары и проекты, организуемые государством, помощь в надлежащем управлении инвестиционными вложениями, правильная корректировка налоговой политики, применение налоговых льгот и освобождений от налогов для привлечения иностранных инвесторов. для страны играет важную роль. Разная налоговая политика может представлять собой разные стратегии привлечения инвестиций. Когда иностранные инвесторы вкладывают деньги в другую страну, они в первую очередь анализируют налоговое законодательство этой страны, анализируют нововведения в налоговой системе, какие изменения в налоговом законодательстве в последние 3-5 лет исследуются и сравниваются. В дополнение к вышеупомянутым факторам, инвесторы, которые инвестируют, помимо изучения налоговой системы, изучают уровень экономической и политической стабильности в этой стране, определяют степень региональной стабильности , обнаруживать подходящие транзитные пути для развития торговых отношений и способствовать развитию логистических отношений, они исследуют направленные процессы.

В первой главе диссертации было проведено исследование сущности и теоретических основ инвестирования, какова роль государства в формировании благоприятной инвестиционной среды, какие факторы необходимо использовать для повышения инвестиционной привлекательности, какие нюансы следует учитывать. сосредоточены на том, чтобы развивать инвестиционную среду и привлекать иностранных инвесторов в страну, и государство, какие налоговые льготы должны быть предоставлены. Во второй главе исследуется влияние налоговой политики на инвестиционную среду в современную эпоху, какие негативные положительное влияние

налоговой политики на инвестиционные потоки, а также сравниваются и анализируются различия между странами, применяющими налоговые льготы, и странами, не применяющими налоговые льготы, оценка роли налоговой политики в регулировании экономики, изучение исследованы ее отрицательные и положительные черты, проведен анализ влияния налоговых льгот, налоговых льгот и налоговых льгот на инвестиционную привлекательность, применяемых государством, в третьей главе приведена краткая литература, проведены исследования и результаты по теме. Проанализированы методология эконометрики, база данных и интерпретация эконометрической оценки.

MÜNDƏRİCAT


**Cədvəllərin siyahısı. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 9**

**İxtisarların siyahısı. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .. . . . . . . 10**

**Giriş. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ...... . . 11**

**I Fəsil: İnvestisiya cəlbediciliyinin artırılmasının nəzəri və praktiki əsasları**. ............**13**

1.1 İnvestisiyanın mahiyyəti və onun nəzəri əsasları. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .13

1.2 Əlverişli investisiya mühitinin formalaşmasında dövlətin rolu. . . . . . . . . . . . . . . . . . 20

1.3 Azərbaycanda investisiya mühiti. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ..27

**II Fəsil: Müasir dövrdə vergi siyasətinin investisiya mühitinə təsiri. . . .. . . . . . . . .. . .38**

2. 1 İqtisadiyyatın tənzimlənməsində vergi siyasətinin rolu............................................38

2. 2 Vergi siyasətinin investisiya cəlbediciliyinə təsirlərinin təhlili ..................................47

**III Fəsil: Azərbaycanda investisiya cəlbediciliyinə vergi siyasətinin təsirinin ekonometrik analizi....................................................................................................55**

3. 1 Ədəbiyyat xülasəsi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ........ . . . . . . .. . ....55

3. 2 Ekonometrik metodologiya və verilənlər bazası. . . . . . . . . . . ......................... . .. . ...58

3. 3 Ekonometrik qiymətləndirmənin şərhi. . . . . . . . . . . ......................... . . . . . . . . ... .....61

Nəticə. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ......................... . . . . . . . ... . ..64

Ədəbiyyat siyahısı. . . . . . . . . . . . . . . .......................... . . . . . . . . . . . . . . . . . . . .. ... ..66

# CƏDVƏLLƏRİN SİYAHISI

**Diaqram 1** Ölkə iqtisadiyyatına yönəlik investisiyalar (mln ABŞ dolları ) . . . . . . . . . . . . .29

**Diaqram 2** Neft sektoru və qeyri – neft sektoru üzrə ölkə iqtisadiyyatına yönəlik investisiyalar. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ............30

**Diaqram 3** TXİ və Birgə müəssisələrin yaradılmasında payçı olan xarici şirkətlərin faiz göstəriciləri………………. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ...........................31

**Diaqram 4** Azərbaycan iqtisadiyyatına yatırım edən xarici investorların göstəriciləri. . . .32

**Diaqram 5** Qarabağ iqtisadi regionuna investisiya axınları. . . . . . . . . . . . . . . . . . . . . .. . . . .35

**Diaqram 6** Qeyri-neft sektoru üzrə BXİ -nın illər üzrə dinamikası. . . . . . . . . . . . . . . . .......37

**Diaqram 7** 2021 -ci il üzrə AZərbaycana ən çox investistisiya yatırımı edən ölkələr . ..54

**Cədvəl 1** Genişləndirilmiş Dikey- Fuller (ADF) vahid kök testlərinin nəticələri. . . . . . . . .61

**Cədvəl 2** Engle -Granger kointeqrasiya testlərinin nəticələri……………………............62

**Cədvəl 3** Parkın dəyişən əlavə etmə kointeqrasiya testlərinin nəticələri. . . . . . . . . . . . . . . .63

**Cədvəl 4** FMOLS metodu ilə qiymətləndirmə nəticələri. . . . . . . . . . . . . . . . . . . . . . . . . ....63

**Cədvəl 5** DOLS metodu ilə qiymətləndirmə nəticələri . . . . . . . . . . . . . . . . . . . . . . . . . ......64

**Cədvəl 6** CCR metodu ilə qiymətləndirmə nəticələri.........................................................64

# İXTİSARLARIN SİYAHISI

| | |
|---|---|
| **BXİ** | Birbaşa Xarici İnvestisiya |
| **TXİ** | Təkcə Xarici İnvestisiyalar |
| **AİŞ** | AZərbaycan İnvestisiya Şirkəti |
| **DSK** | Dövlət Statistika Komitəsi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **FMOLS** | Tam Modifikasiya Olunmuş Ən Kiçik Kvadratlar Metodu |
| **DOLS** | Dinamik Ən Kiçik Kvadratlar Metodu |
| **CCR** | Kanonik Kointeqrasiya Reqressiyası |
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **RF** | Rusiya Federasiyası |
| **BB** | Böyük Britaniya |
| **BRİCS** | Braziliya , Rusiya , Hindistan , Çin , Cənubi Afrika Respublikası |
| **MLY** | Milyon |
| **Səh.** | Səhifə |
| **P.** | Page ( ingilis dilində səhifə ) |
| **C.** | Страница ( rus dilində səhifə) |

# Giriş

**Tədqiqatın aktuallığı**. Normal şərtlər daxilində investisiya mühitinin yaradılması hər bir dövlətin iqtisdi, eyni zamanda investisiya siyasətinin tənzimlənməsi kimi əsas vəzifələrdən biri kimi təzahür olunur. İnvestisiya yatırımlarının düzgün , planlı şəkildə tətbiqi sayəsində istehsalın inkişafını sürətləndirmək və iqtisadi göstəriciləri inkişaf etdirmək daha əlverişli olur. İnvestisiyanın aktuallığı günün tələblərinə uyğun olmalıdır. İnvestisiya ediləcək sahəyə tələbat olmalıdır ki, mənfəət əldə edilsin. İnvestorlar investisiya edən zaman yatırım qərarlarını diqqətlə analiz etməli, riskləri idarə etməyi bacarmalı, hədəflərinə uyğun strategiyalar tətbiq etməlidir. Maliyyə axınlarını idarə edə biləcək səviyyədə idarəçiliyə sahib olmalıdır. Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra bir çox qanunvericilik aktlarına , qanun layihələrinə eyni zamanda , vergi qanunvericiliyində əsaslı şəkildə dəyişikliklər olundu. Bununla da həm xarici , həm də daxili investorların ölkımizə investisiya yatırımları etmələri üçün əlverişli , rəqabətə davamlı bir mühit yaradıldı. Bu da öz növbəsinində iqtisadiyyatın inkişaf etməsinə təkan verdi. İqtisadi və siyasi sabitliyin qorunması, valyuta sabitliyinin təmin edilməsi də əsas əlverişli faktorlardan sayılır. Ümumilli liderimiz Heydər Əliyevin tətbiq etdiyi optimal vergi siyasətinin tətbiqi , vergi şərtlərinin yumuşaldılması , vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində vergi proqramlarının hazırlanması , vergi siteminə nəzarətin yaradılması əsas məsələlərdəndir. Sadalanan əsas maddələr onu göstərir ki, ölkəmizdə investisiya yatırımları üçün əlverişli mühit mövcuddur.

İnvestisiya fəaliyyətində fərqli iqtisadi mexanizmlərdən istifadə olunur. Əsas tənzimləmə faktorlarına vergitutma subyektlərinin və obyektlərinin , vergi dərəcələrinin aşağı salınması, vergi güzəştlərinin tətbiq edilməsi , vergi azadolmaları və dövlət tərəfindən hazırlanmış digər güzəşt paketləri aiddir. Qeyd olunanları nəzərə alsaq bugünkü dövrdə investisiya yatırımlarının tənzimlənməsi zamanı vergi siteminin araşdırılıb təhlil edilməsi olduqca vacib məsələlərdəndir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** İnvestorlar investisiya qoyuluşu edən zaman narahat olduqları başlıca məsələ əlverişli vergi güzəştlərinin yaradılıb-yaradılmaması ilə baqlıdır. Vergi sistemindəki son dövrlərdə baş vermiş və gələcəkdə baş verə biləcək dəyişikliklərin təhlil edilib araşdırılması ilə maraqlanırlar.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Dissertasiyanın yazılmasının əsas məqsədi investisiya mühitinin yaxşılaşdırılması , investisiya edəcək yatırımçıların stimullaşdırılması və inkişafına dəstək olmaq üçün vergi qanunvericiliyinin və optimal vergi mexanizmi problemlərinin öyrənilib təhlil edilərək təkliflər hazırlamaq və ondan irəli gələn məsələlərin həllinə yönəlik addımların atılmasına təkan vermək , investisiyanın məzmununu təhlil etmək , Azərbaycanda və digər xarici ölkələrdə investisiya mühitinin araşdırmaqdan ibarətdir. Dissertasiyanın vəzifələrinə isə vergi qanunvericiliyinin ,vergi əlavələrinin, ümumilikdə vergi sisteminin investisiya mühitinə təsirlərinin təsirinin qiymətləndirilməsi, xaricdəki investisiya mühitinin öyrənilərək Azərbaycan da tətbiqini gerçəkləşdirmək və sairə qeyd etmək olar.

**Tədqiqat işinin nəzəri və metodoloji əsaslarını** sistemli yanaşma , qeyd olunan sahədə yazılmış məqalələr , elmi əsərlər , müqayisəli təhlillər təşkil edir. Dissertasiya mövzusu yazılarkən iqtisadçı araşdırmaçıların yazmış olduqları elmi əsərlərdən , elmi təhlillərin analizlərindən , elmi qəzet və jurnallardan istifadə edilmişdir.

Məqalənin **elmi yeniliyi** vergi sistemi ilə investisiyaların qarşılıqlı tənzimlənməsi proseslərinin istiqamətlərinin təhlil edilərək araşdırılmasını həyata keçirmək , yeni əsaslandırılmış , analiz edilmiş faktorların üzə çıxmasını və yatırımlar zamanı tətbiqini reallaşdırmaqdan ibarətdir. Azərbaycan Respublikasının Vergi Qanunvericiliyi ilə xarici dövlətlərin vergi qanunvericilikləri müqayisəli şəkildə araşdırılmış və mənfi müsbət xüsusuyyətlər təhlil olunmuş , xarici ölkələrdəki vergi qanunvericiliyi ilə Azərbaycanın Vergi Qanunvericiliyinin normal olması müəyyənləşdirilmişdir. Ölkədəki vergi siyasətinin investisiyaya təsirləri müəyyənləşdirilmişdir.

**Dissertasiyanın təcrübi və praktiki əhəmiyyəti.** Vergi qanunvericliliyindən irəli gələn və investisiya mühitinin tənzimlənməsi istiqamətlərini müəyyən edən yeni elmi əsaslandırmaların tətbiq edilməsindən ibarətdir. Bununla yanaşı magistrant araşdırdığı tədqiqat işinin praktiki əhəmiyyətini gələcək illərdə analoji problemli situasiyaları elmi tədqiqatlar üçün faydalı olacağınıı düşünür.

**Tədqiqatın obyekti və predmeti.** Tədiqatın obeytini investisiyalar , investisiya mühiti və bu iki faktorun dövlət tərəfindən tənzimlənməsi əhatə edir. Tədqiqatın predmetini isə investisiya mühitinin formalaşmasında vergi sisteminin təsirləri , rolu , stimullaşdırılması kimi istiqamətləri üstünlük təşkil edir.

# I FƏSİL. İnvestisiya cəlbediciliyinin artırılmasının nəzəri və praktiki əsasları.

## 1. 1 İnvestisiyanın mahiyyəti və onun nəzəri əsasları.

İqtisadiyyatın əsas və ayrılmaz tərkib hissələrindən biri də investisiyadır. İqtisadiyyatın formalaşmasının əsasını təşkil edir. ”İnvestisiya” sözü latın mənşəli olub “investire” sözündən götürülmüşdür. Hərfi mənası “geyindirmək” olsa da, ekonomiks elmində “mənfəət əldə etmək məqsədilə kapitala qoyuluş”mənasını izah edir. Bəzi ədəbiyyatlarda investisiya haqqında müxtəlif yanaşma və təhriflər vardır. Rus dilli mənbələrdə belə təhrif verilir ki, gələcəkdə gəlir əldə etmək məqsədilə istehsalın inkişafı və genişləndirilməsi qoyulan xərclər investisiyanın iqtisadi mahiyyəti təşkil edir. Burada da “gəlir” sözü düzgün deyil, haqlı olaraq müəllif “iqtisadi mahiyyət”adlandırıb. Daha dolğun olması üçün aşağıdakı təhrifi misal göstərmək olar. İnvestisiya gələcəkdə mənfəət əldə edilməsi üçün çəkilən xərclərin cəmidir. İnvestisiya qısa, orta və uzun müddətli ola bilir. Qısa müddətli investisiyalar 3-5 il, . orta müddətli 5-10 il , uzun müddətli investisiyalar isə 10 il və daha yuxarı illəri əhatə edir. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, investisiyanın dinamik və ardıcıl inkişafı ölkədə iqtisadi artıma güclü təkan vermişdir. Bu proses makro, mezo, mikro səviyyədə ekoloji, sosial, iqtisadi təsirlərini göstərir. Hər bir insanın yaşaması üçün müəyyən ehtiyaclar vardır ki, onları qarşılaması mütləqdir. Həmin ehtiyacları iki yerə bölmək olar:

- Əsas ehtiyaclar
- Qeyri -əsas ehtiyaclar

Bu ehtiyacların 80%-90% faizinin qarşılanması üçün pulun olması vacib hesab olunur. İşləyib qazandıqları pulun bir qismi ilə ehtiyaclarını qarşılayır, digər qismini qənaət edərək saxlayırlar. Qənaət edilmiş vəsaitlərin saxlanılması və artımının təmin edilməsi üçün investisiya yatırımlarından istifadə etmək lazımdır. Məhz investisiya bu aktivlərin hər zaman dəyər qazanmasına kömək edəcəkdir. Müasir[1] dövrdə iqtisadiyyatın və təsərrüfat həyatının əsas hissəsini məhz investisiya təskil edir. İnvestisiya həm fərdi maraqları, həm də dövlətin

---

[1] Theories and Strategies (2020) Understanding Investments page 47

maraqlarının formalaşmasında müstəsna əhəmiyyatə malikdir. Maddi, qeyri-maddi, ehtiyatda olan resursların bilavasitə istifadəsini həyata keçirir. Bütün sahələrdə investisiya gəlirli olmaya bilər. Buna görə də investisiya qoyuluşu etməmişdən əvvəl investisiya olunacaq kateqorik dəyişənləri düzgün seçmək lazımdır ki, sonda maliyyə itkisi ilə üz-üzə gəlinməsin. İnvestisiya yatırımları ölkədaxili və ölkəxarici də ola bilir. Ölkəxarici yatırımlar edən zaman həmin ölkənin iqtisadi-siyasi vəziyyəti, maliyyə bazarlarına çıxış sferasının hansı formada olması, telekomnikasiya infrastrukturunun vəziyyəti, yerləşdiyi coğrafi ərazinin təbii imkanları, geosiyasi dəyişiklərinin izlənilməsi vacib məqamlardan hesab olunur. İnvestiya qoyuluşu üçün yatırım ediləcək sahələr düzgün qiymətləndirilməlidi. Elə ölkələr vardır ki, orada turizm sahəsində investisiya edilməsi daha real və daha qazanclı görünür. Məsələn Türkiyə, İsveç, Danimarka və əksər Avropa ölkələrini misal göstərə bilərik. Bu ölkələrə turizm sahələri üzrə investisiya yatırımlarının edilməsi müsbət nəticə verəcəkdir. Bununla yanaşı elə Avropa ölkələri vardır ki, onlara bəzi sahələr üzrə investisiya qoyuluşu etmək çox absurtdur. Nümunə üçün Fransanı götürək bu ölkəyə neft-qaz sahəsi üzrə yatırım etmək investor üçün çox yanlış qərar olar, amma alternativ olaraq turizm üzrə yatırım edilərsə çox gəlirli olacağı daha inandırıcı olacaqdır. İnvestisiya üçün düzgün mühit seçilməlidir. Bəzi ölkələr də vardır ki mühit vardır, fəqət geosiyasi vəziyyətin gərgin olması oraya investisiya edə biləcək investorları çəkindirir. Məsələn İraq, Əfqanıstan, Suriya kimi ölkələri göstərmək olar. Belə bir nəticəyə gəlirik ki, investisiya etmək üçün təkcə resursların həmin sahə üçün bolluğu kifayət etmir, eyni zaman da o ölkənin yerləşdiyi geosiyasi sfera analiz edilməlidir, yatırım edəcək xarici şirkətlərə vergi güzəştlərinin uyğunluğu müəyyənləşdirilməlidir.

- ❖ İnvestisanın fərqləndirilən iki əsas forması vardır:
- ✓ 1. Birbaşa investisiya
- ✓ 2. Portfel investisiya

Birbaşa investisiyalar (gəlir əldə etmək məqsədilə müəssisənin kapitalına və əsas vəsaitlərinə qoyulan investisiyalardır) həm də real investisiyalar adlandırılır. Portfel investisiya qiymətli kağızlar portfeli şəklində formalaşır. Səhmlərə, istiqrazlara və digər qiymətli kağızları qeyd etmək olar. Passiv sahibliyi ifadə edir, qiymetli kağızı dərc edən müəssisənin idarə edilməsində iştirak hüququ yoxdur. İnvestisiyanın işlənilmə forması :Ümumilikdə investisiya aktı gəlir və dəyər artırmaq məqsədi ilə dövlət, fərdi sahibkar və subyektlərin inkişafına yönəlmişdir. Gələcəkdə gəlir artırmaq üçün etdiyimiz hər bir hərəkət, hər bir plan investisiya sayila bilər. Nümunə kimi qeyd edə bilərik ki bilik səviyyəmizin yüksəldilməsi üçün əlavə kurslara yazılırıq, vaxtımızın bir hissəsini həmin biliyi əldə etmək üçün bir növ fəda edirik.

Bununla biz  pulumuz və vaxtımızdan sərmayə kimi istifadə edirik ki, gələcəkdə karyeramızda nəaliyyətli uğurlara imza ataq. Bununla da qazancımızı çoxaldaq. Bu hallar gələcəklə əlaqələndiyi üçün bu plan ve istəklərimizi reallaşsdırmaq bizə təəsüf ki risksiz başa gəlməyəcəkdir. İnvestisiya və risk bir-birləri ilə  qarşılıqlı vəhtəddədir. Məsələn hər hansı layihə ilə bağlı bir şirkətə investisiya qoyursunuz. Yatırım etdiyiniz şirkət müəyyən səbəblərdən dolayı müflis səviyyəsinə qədər düşür. Bu zaman yatırım etdiyiniz pul sizə fayda verməyəcəkdir və ya əksini düşünək müəyyən qədər çox yatırım etdiyiniz şirkət həmin pulun 4 qatı qədəri gəlir gətirib. Risk paylaşımını düzgün qiymətləndirmək lazımdır ki,  neqativ nəticələr əldə olunmasın. Hər işə, layihəyə araşdırma aparmadan yatırım etmək ciddi xəta əmsalıdır. Buna görədə məsləhətçilərə də ehtiyac duyulur. Onlar investor üçün ən uyğun , Hərtərəfli maraqlarını qarşılaya biləcək yatırımları tövsiyyə etməlidir.

Gəlir və ya sosial səmərə əldə etmək üçün sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, bununla yanaşı maddi və intellektual sərvətlərdən ibarətdir. İnvestisiya aktiv və ya obyekt kimi də baxmaq olar. Yəni: İnvestisiya gəlir və qiymət artımı əldə etmək məqsədi ilə əldə edilmiş aktivdir. Hər hansı əmtəə satın aldıqda, məqsəd yatırım etməklə gələcəkdə sərvətinə əlavə pay qatmaqdır. Bura qiymətli kağızlar, səhmlər, bank əmanətləri, kreditlər, paylar və sairə aiddir. İnvestisiya real kapitalın artmasına, iqtisadi inkisafın yüksəlməsinə səbəb olur ki,  bu da iqtisadiyyatın istehsal potensialını artırır. Buna görə də müəssisənin səmərəli investisiya fəaliyyətinin təmin edilməsi sahibkarlıq subyektlərinin potensialının yüksəldilməsi üçün əsas məsələlərdən biridir. İnvestisiyanın mahiyyətinin şərhi ilə bağlı  çoxsaylı mülahizələr, fikirlər, elmi təhlillər mövcuddur. Qədim zamanlarda sərmayə qoymağı nəzərdə tuturdu və müəyyən üstünlüklərin əldə edilməsi ilə əlaqələndirilirdi. İnvestisiya elmi-texniki tərəqqinin və qiymətli kağızlar bazarının inkişafı ilə sıx əlaqəlidir. Elmi-texniki tərəqqinin inkişafı və yeniliklərin tətbiqi ilə əlaqəsi quruldu. İnvestisiya qoyuluşunun əsas funksiyaları sosial-iqtisadi mühitə ümumiləşdirilmişdir. Belə izah olunur ki, investisiya  fəaliyyəti kənd və ətraf ərazilərin iqtisadi, ekoloji , sosial təsirlərini və inkişafını təmin etmək məqsədilə bütün növ resursların innovative əsaslarla  kənd təsərrüfatı sahibkarlıq fəaliyyətinə cəlb edilməsi prosesidir. İvestisiya kateqorik cəhətdən mürəkkəbdir, belə ki, o, dövrün tələb və xüsusiyyətləri nəzərə alınmaqla düzgün şərh və aydın təsnifat olunmalıdır. Araşdırılan konsepsiyanın təsnifat xüsusiyyətlərinin müəyyənləşdirilməsinə  elmi yanaşmanın tətbiqiliyinin vacibliyi seçimin əsaslığını artırmağa və investisiya qoyuluşunun yüksək səmərəliyini təmin etməyə imkan verir ki,  bu da  təkcə iqtisadiyyatin deyil, digər

sahələrində inkişafına təkan verir. İnvestisiyanın müsbət təsirlərindən biri də ölkə iqtisadiyyatına qazandırdığı mənfəət miqdarı ilə ölçülür.

Problemin qoyulusu . İnvestisiyaya sadə əməliyyat kimi yanaşmaq olmaz, əsaslı yanaşmaları nəzərə alaraq demək olar ki yetəri qədər çox şaxəli və mürəkkəb təsnifata malikdir. İnkişafetmə xüsusiyyətləri hər bir ölkə üçün fərqli dərəcəyə malikdir. Bunu həmin ölkələrin iqtisadiyyatındakı irəlləyişlərində, sosial-mədəni əlaqələrində görə bilərik. Dövrünün tələb və təklifləri nəzərdən keçirilməli və ona uyğun təsnifatlar qəbul olunmalıdır. Bu təsnifatlar öyrənildikdən sonra elmi cəhətdən düzgün yanaşmanın təmin edilməsi, iqtisadiyyatla yanaşı digər sahələrin inkişaf edərək böyüməsinə əsaslı təsirini göstərir. İnvestisiya cəlbediciliyi təkcə dövlət üçün maraqlı deyil, eyni zamanda ferdi sahibkarlar ve subyektlər üçün də xüsusi əhəmiyyət kəsb etməlidir:

1. Onların hər birinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına şərait yaradır.

2. Şirkət və müəssisələrdə davamlı inkişafı gücləndirir.

3. İstehsal və qeyri-istehsal sahələrinin inkişafına təkan verir.

4. Göstərilən xidmət keyfiyyətinin yaxşılasdırılmasına, məhsulda keyfiyyət göstəricilərinin artmasına səbəb olur.

5. Müəssisələrdə, şirkətlərdə iqtisadi əlaqələrin genişləndirir.

Bugünkü[2] müasir dunya siferasında iqtisadi və qeyri -istehsal, istehsal təsərrüfat sahələri bu kimi digər sahələrdə investisiya qoyuluşları mühüm rol oynayır. Ən çox qiymətli kağızlar, bank əməliyyatları, kireditləşmə prosesləri, texniki və texnoloji avadanlıqlar, lisenziyalar, ticari əlaqələr, sahibkarlıq fəaliyyəti və digər qiymətlilər formasında təzahür olunur. Bİr dövlətin iqtisadi göstəricilərini onun investisiya qoyuluşları ilə əlaqələndirmədən hesabat şəklində teqdim etmək müəyyən qədər iqtisadi uyğunsuzluqlar yaradacaqdır. Belə demək olar ki, investisiya yatırımları çox olan ölkələrdə iqtisadi göstəricilər daha yüksək olur. İnvestisiya qoyuluşları fərqli-fərqli sahələri əhatə edə bilər. Bu həmin ölkənin təbii ehtiyyatları, inkişafa yönəlik sahələri ilə bağlı ola bilər. Məsələn : Turizm, neft-qaz, metallurgiya sənayesi ilə bağlı, dağ-mədən, İstehsalat və qeyri-istehsalat sahələrini missal kimi göstərə bilərik. İnvestisiya

[2] Naima Khashimova, Barno Tillaeva, Barno Razzakova (2020) Essence Of Investment Potential And Patterns Of Investment Fields In The Economy page 12

istənilən səviyyədə (mikro, mezo və makro)iqtisadi və istehsal potensiyalarının artmasına xidmət edən xüsusi amildir.

İnvestisiya yatırımları hər zaman gəlir gətirəcək anlamına gəlməməlidir, çünki çoxsaylı investisiya yatırımlarında yetəri qədər zərər müşahidə olunmuşdur. Bunun çoxsaylı səbəbləri vardır, onlara investisya ediləcək sahənin düzgün seçilməməsi, düzgün qərar qəbul edilməməsi, vəsait azlığı, real mühitin vəziyyətə uyğun dəyərləndirilməməsi və sairə qeyd etmək olar. Bunun üçün də investisiya ediləcək sahələr yetəri qədər araşdırılmalıdır.

Müxtəlif yanaşma amillərini nəzərə almaqla investisiyanı növ cəhətdən şaxələndirmək mümkündür. Qənaət edilərək saxlanılan pulu artırmaq üçün insanın öz istəyilə seçim edə biləcəyi çoxlu oriyentasiya vəziyyətləri vardır. Bu baxımdan investisiyaları 2 qrupa aid etmək olar:

1) Maliyyə investisiyaları 2) İstehsal investisiyaları

Həm[3] kiçik, həm də böyük investorlar tez-tez bir müəssisədə tərəfdaş olmağa və ya onu qismən almağa və dəyər artımından faydalanmağa və məhsulu alıb satmazdan əvvəl qənaətcil pulu qiymətləndirməyə üstünluk verirlər. Ümumilikdə, istehsal investisiyalarını inkişaf investisiyaları, müəssisənin alınması, həmin müəssisənin iqtisadi gücünün artırılması kimi dəyərləndirmək olar. Bir müəssisənin inşa edilməsi və ya alınmasını da istehsal investisiyalarına aid etmək olar. Maliyyə investisiyalarına isə səhm, istiqraz, opsionları və digər qiymətli kağızları aid etmək olar. Ümumiyyətlə investisiyanın növlərinə səhmlər istiqrazlar qarşılıqlı fondler, birjada ticarət edilən fondler , depozit sertifikatlarını misal göstərmək olar. Texnil

[4] Elmi araşdırmalar və aparılar təhlillər nəticəsində (Somarajah M. , 1994) investisiya fondlarının iki forması müəyyən olunmuşdur:

1. Açıq tipli investisiya fondu

2. Qapalı tipli investisiya fondu

Açıq tipli investisiya fondu qeyri-məhdud sayda səhm buraxa bilən birləşdirilmiş investor vəsaitlərinin şaxələndirilmiş portfelidir. Fond sponsoru səhmləri birbaşa investorlara satır və

[3] Ertan SEVİNÇ (2022). YATIRIM TEŞVİKLERİNİN ULUSLARARASI TİCARET VE DOĞRUDAN YABANCI YATIRIMLAR ÜZERİNDEKİ ETKİLERİ seh 10
[4] Somarajah M. (1994). The International Law on Foreign Investments. Cambridge, page 78

geri ala bilir. Həmin səhmləronların cari xalis dəyərinə əsasən dəyərləndirilir. Bir çox fondlar hedcinq və birja ticarət fondları açıq fondlara aid olunur. Açıq tipli fondlar Qapalı tipli fondlara nisbətdə daha çox yayılmışdır. Aşağıda qeyd olunan əsas cəhətlərə nəzər salaq:

1. Səhm sayı qeyri-məhduddur. Yəni saysız-hesabsiz istənilən qədər səhmə malik ola bilirlər.

2. Əksər birja bə fondlar Açıq tipli investisiya fondlarına daxildir.

3 Bu tipli fondlar birjalarda alqı-satqı prosesinde iştirakçı kimi çıxış etmirlər.

Açıq fondda alıcılar istədikləri müddətdə səhmlər buraxmaqda sərbəstdirlər. İnvestisiya üçün açıq olduqları üçün , ona görədə açıq səhm adlandırıllar. Xüsusi investisiya və vəsait cəlb eləmək üçün , şaxələndirilmiş portfel almaq Rahat və asan yol təqdim edir.

Qapalı tipli[5] fondlar-kütləvi təklif vasitəsilə işə salınır. Bu fondlar daha likvidlidir, səhmləri birjada alınıb, satıla bilər, amma yeni səhmlər formalaşdırılmayacaq, yeni vəsait daxil olmayacaq. Əksər bələdiyyə istiqraz fondları, qlobal investisiya fondları qapalı fondlardır. Qapalı tipli investisiya indeksli qarşılıqlı fondlardan və ETF -lərdən fərqli olaraq, aktiv şəkildə idarə olunur və çox vaxt bir sənaye , sector və bölgəyə cəmlənir. Qapalı tipli fondlarla Açıq tipli fondlar arasında ferqliliklər olduğu kimi, eyni zamanda eynilikləri də var: Hər ikisi gəlir və kapital qazancını səhmdarlarına bölüşdürür. Hər ikisi “xərc nisbəti” anlayışına sahibdirlər.

Yuxarıda qeyd olunan məlumatlara əsasən investisiya mühitinin formalaşdırılması üçün lazım olan əsas müddəalar sadalanmışdır. Qapalı tipli investisiaya ilə Açıq tipli investisiya investisiya bazarının inkişaf edilməsi, formalaşması istiqamətində mühüm rola malikdir.

Qərarların qəbulu mərhələsində investisiyanın reallaşması üçün müxtəlif amillərin təsirinin söz açmaq olar. Yatırımlar üçün qarşıya qoyulan məqsədlərin yüksək səviyyədə yerinə yetirilməsi üçün investisiyalara təsir edə biləcək bütün proseslər təhlil edilərək araşdırılmalıdır. Araşdırılan və təhlil olunan proseslər müsbət dəyərləndirilə bilsə, lazım olan səviyyədə investisiya qoyuluşu edilə bilər, bununla da uğurlu nəticələrə imza atıla bilər. İnvestisiya yatırımlarına birbaşa təsir edəcək əsas vasitələrə

- ✓ 1. Faiz dərəcələri
- ✓ 2. Siyasi sabitlik
- ✓ 3. Milli gəlir
- ✓ 4. Gözləntilər

[5] 4. FDI Outward Stock(1990) Region and Economy, Page 112

- ✓ 5. İnvestisiya yeri
- ✓ 6. İnvestisiyanı qidalandıran resursları aiddir.

**Faiz dərəcələri** investora, investisiya qoyuluşu edilən qurumlara bir neçə cür təsir edə bilər. Müəyyən qədər qazancı olan sahibkar faiz dərəcələrinin yüksək olduğu zamanda əlində olan vəsaiti investisiya qoyuluşu edərək yox, faizə yatırmaqla yüksək qazanc əldə etmə şansı daha çox olur. Bu zaman iinvestisiya qoyuluşu edərək risk qazanmaqdansa, risksiz faizli yatırımı daha güvənilir hesab olunur. Əgər yüksək faiz dərəcəsi ilə bankdan və ya hansısa kredit təşkilatından götürülən pul hansısa layihəyə yatırıldıqda müəyyən vaxtdan sonra faizli ödənişləri qaytarmaq investor üçün daha çətin olacaqdır.

**Siyasi sabitlik.** Bəzi ölkələrin iqtisadiyyatında qeyri-siyasi sabitlik müşahidə olunur. Bu da investisiya yatırımlarının həcminə və ektivliyinə mənfi təsir göstərir. Şərq ölkələrində investisiya qoyuluşuna cəlb ediləcək bir çox dövlətlər mövcuddur, lakin siyasi və iqtisadi sabitliyin mövcud olmadığı bir mühitdə investisiya qoyuluşu investor üçün ciddi riskdir. Neft sektoruna yatırım edilə biləcək Suriya, İraq, İran, Yəmən kimi dövlətləri qeyd etmək olar. İnvestisiya üçün yetərli resurlar olmağına rəğmən investorlar üçün maraqlı deyildir.

**Milli gəlir.** Milli gəlirin artması investisiyanın effektliyini əsaslı şəkildə inkişaf etdirir. İstehsal olunan mal və xidmətlərin xalis pul dəyəri olan milli gəlirin artması və istehlakın sürətlənməsinə şərait yaradacaqdır. Mövcud olan vəziyyətin dəyərləndirilməsi üçün investorlar yatırım etmək üçün səfərbər olacaqlar. Beləliklə, iqtisadi qərar qəbul edən qurumlar milli gəlirin artması nəticəsində investisiya yatırımlarının da artması yönündə işlər görürlər.

**Gözləntilər.** Sahibkarları[6] sərmayə qoymağa sövq edən gözləntilərin əsas elementlərindən biri investisiyalar nəticəsində qazanc gözləməsidir. Sahibkarlar gələcək dövrlərdə tələbin artacağı ehtimalı ilə istehsal edəcəyi məhsula yatırım yatırmalıdırlar. Gözləntilər bəzən riskli də ola bilir, bu gözləntilər sahibkarlar üçün həm müsbət, həm də mənfi nəticələrə səbəb ola bilir. Ümumilikdə demək olar ki, yatırımçının gözləntiləri investisiyalara həvəsləndirmə baxımından mühüm səbəblərdəndir.

**İnvestisiya yeri.** İnvestisiya qoyuluşu etməzdən əvvəl araşdırma, təhlillər apırılası bir çox məqamlar var. Ərazinin infrastrukturu insanlar arasında işçi qüvvəsinin, əmək resurslarına çıxışı baxımından sərmayə qoyacaq sahibkarlara mühüm istiqamətlər verir. Bununla yanaşı

[6] Ertan SEVİNÇ (2022).YATIRIM TEŞVİKLERİNİN ULUSLARARASI TİCARET VE DOĞRUDAN YABANCI YATIRIMLAR ÜZERİNDEKİ ETKİLERİ,seh 18

regionun coğrafi reylefinin daşıma proseslərinə təsirinin müəyyənləşdirilməsi, xammalla təminatda problemin olub-olmaması əsas səbəblərdən sayılır.

**İnvestisiyanı qidalandıran resurslar**. Hər hansısa planlaşdırılmış investisiya layihəsini gerçəkləşdirilməsi üçün layihədəki xərcləri, öhdəlikləri qarşılamaqdan ötəri resurs gərəklidir. İnvestisiya layihələrini qidalandıran bu resurslar müxtəlif formalarda təzahür oluna bilər. Resursları təkcə nağd pul müqavilində deyil, eyni zamanda xidmət müqavilində də almaq mümkündür. İnvestisiyaların ən vacib mənbələrindən biri də əldə edilmiş gəlir istehlaka deyil, əmanət kimi saxlanılır. Bununla da yatırımçı borc vəsait cəlb etmədən , risk etmədən əmanət vasitəsi ilə vacib olan investisiya resursları əldə etmiş olur.

## 1. 2 Əlverişli investisiya mühitinin formalaşmasında dövlətin rolu

Bütün ölkələrdə strateji əlaqələr, iqtisadi göstəricilər, təbii ehtiyatların paylanma arealı, siyasi proseslər eyni xətt üzrə hərəkət etmir. Fərqliliklər müqayisə edilməz dərəcədə çoxluq təşkil edir. Yuxarıda qeyd etdiyimiz göstəricilər investisiya prosesinin formalaşmasının əsasını təşkil edir. Bu məsələlər təhlil edilməli, araşdırma aparılmalı, investisiya üçün üzunmüddətli mexanizmləri işləyib hazırlamalıdır. İnvestisiya mühitinin inkişaf etdirilməsinin birbaşa təminatçısı kimi dövlət çıxış etməlidir. Bunun üçün bir çox layihələr təşkil edilməli, investisiya cəlbediciliyinin artırılmasında vergi güzəştləri tətbiq edilməli, maliyyələşdirmə proseslərinə dəstək göstərməlidir. İnvestisiya yatırımlarının inkişaf etdirilməsi üçün xarici investorların qarşısında duran çətinliklər araşdırılmalı və onların investisiya layihələrinə qoşulması üçün bütün gücünü səfərbər etməlidir. Məsələn: xarici investorların cəlb edilməsi üçün

- ✓ 1. Vergi güzəştləri tətbiq edilməlidir ki, investorun yatırım etməsi üçün iqtisadi maraqları üstünlük təşkil etsin.
- ✓ 2. Kompleks və sistemli tədbirlər görməli, süni əngəllər aradan qaldırılmalı.
- ✓ 3. İnvestorların cəlbi üçün layihələr hazırlamalı və təqdim etməlidir.
- ✓ 4. Maliyyələşmə prosesinə köməklik göstərməlidir.
- ✓ 5. Müasir texnoloji avadanlıqların təmin edilməsinə şərait yaratmalıdır.

- ✓ 6. İnvestisiya fondları təsis edilməlidir.
- ✓ 7. Özəlləşdirmə proseslərininin inkişafına şərait yaradır.
- ✓ 8. İnvestisiya prosesləri ilə bağlı dövlət standartlarını müəyyənləşdirir.
- ✓ 9. Qanunvericilik düzgün tənzimlənməlidir, ehtiyac olmadığı təqdirdə qanunlara əlavə dəyişikliklərin edilməsinə yol verilməməlidir.
- ✓ 10. İnvestisiya yatırımlarının inkişafı istiqamətində qarşıya çıxan bütün bürokratik əngəllər aradan qaldırılmalıdır.

  Bu proseslərin həyata keçirilməsi üçün maliyyə vəsaitlərinə ehtiyac var.

İnvestisiya proseslərinin baş verdiyi mühit investisiya mühiti adlanır. O[7], müəyyən ölkədə, regionda, şəhərdə investisiya şərtlərini müəyyən edən hüquqi -normativ , təşkilati-iqtisadi, ictimai-siyasi və digər amillərin bir-birləri ilə əlaqəli komplekslərin təsiri altında formalaşır, investisiya mühiti makro və mikro iqtisadiyyatın , o cümlədən ictimai-siyasi vəziyyətin müxtəlif amillərinin təsiri altında olan mexanizmdir. Azərbaycan Respublikasının vətəndaşı olmayan şəxslərin Azərbaycana investisiya qoyuluşu etməyini qanunvericilikdə müəyyən maddələrlə tənzimlənir. Biznesin bərpa edilməsi üçün investisiya ən təsirli vasitə hesab olunur. Əlverişli investisiya mühiti dövlətin normativ-hüquqi və iqtisadi fəaliyyəti ilə formalaşır. Resurslar nə qədər məhdud olarsa regionun iqtisadi və səmərəli inkişafı, strateji məqsəd və vəzifələrin həyata keçirilməsi baxımından əsas problem hesab olununr. Həlli üçün regionun inkişafı və investisiya cəlbediciliyini şərtləndirən biznesin modernləşdirilməsini müəyyən edir. Belə biznes sahələrinə yatırımlar cəlb edilməlidir ki, onların həyata keçirilməsi həm regiona töhfə versin, həm də həmin ölkənin iqtisadi əlaqələrinin güclənməsinə şərait yaratsın. Bu nöqteyi nəzərdən baxsaq Azərbaycanda ən perispektivli sahələr bunlardır: turizm, nef-qaz sahəsi, dağ-mədən sənayesi (ən çox da Qarabağ regionu), energetika, tikinti, kənd təsərrüfatı , nəqliyyat və rabitə və sairə bu kimi sahələri qeyd etmək lazımdır. Azərbaycanın dövlət maraqları nəzərə alınmaqla, xarici investisiyaların strukturunda istehsal sahələrinin inkişafı və dirçəlməsinə yönəlik investisiya yatırımları artırılmalıdır.

Dayanıqlı və tarazlı inkişafın təmin edilməsi üçün uzunmüddətli yatırımların cəlb edilməsi ölkəmiz üçün əsas məsələlərdən biridir. İnvestisiya mühitinin yaxşılaşdırılması, inkişaf etdirilməsi istiqamətində dövlətin müəyyən etdiyi prioritet məsələlər vardır. Bunu aşağıdakı müddəalarla əsaslandıraq :

---

[7] Mediterranean Journal of Social Sciences MCSER Publishing, Rome-Italy Vol 6 No 3 S6 June 2015,page1

1. Şəxsi[8] mülkiyyətin qorunmasına dövlət tərəfindən zəmanət verilir, korporativ idarəetmə proseslərində təkmilləşdirilmə işləri aparılmışdır.

2. Sahib olduğu mülkiyyətdən asılı olmayaraq, həm xarici, həm də daxili investorlar üçün sağlam rəqabətli əlverişli mühitin yaradılmasına təminat vermək

3. Normativ-hüquqi proseslərin tənzimlənməsinə birbaşa nəzarət mexanizminin tətbiqi

4. İnvestisiya qoyuluşu edəcək investorların həmin sahə üzrə coğrafi reylefinin dəyərləndirilməsi, müəssisə seçimi haqqında məlumatların rahat şəkildə əldə edilməsi məqsədilə məlumatverici sistemlərin təkmilləşdirilməsi və sairə bu kimi qəbul olunmuş qərarları göstərmək olar.

Hər bir dövlətin prinsipləri mövcuddur, bu prinsiplər təkcə siyasi deyil, eyni zamanda iqtisadi proseslərin tənzimlənməsi baxımından da mühüm əhəmiyyətə malikdir. azərbaycan Respublikası da investisiya qoyuluşu edəcək şirkətlərə, sahibkarlara, investorlara yönəlik müəyyən qərarlar qəbul etmişdir. Onlara aid olunandan biri də iqtisadi təhlukəsizliyi təminatıdır. Rahat şəkildə kənar təsirlər olmadan iqtisadi əlaqələrini inkişaf etdirməsi üçün şərait yaradır. Habelə, investisiyaların elm yönümlu layihələrə yönəlik olmasına dəstək verir, qeyri-neft sektorunun inkişafına yönəlik addımlar atır, İnvestisiyaların orta müddətli və uzunmüddətli olmasına çalışır, Müasir texnoloji avadanlıqlarla təminatda komək olur, atmosfere buraxılan zərərli karbon birləşmələrin miqdarının azaldılması və bu sahələrə üstünlük verməməsi hökümətin prioritet məsələlərindən sayılır.

Pandemiyanın mövcud olduğu bir dönəmdə investisiya yatırımlarının inkişafında ciddi şəkildə ləngimələr və bəzi böyük şirkətlər belə infilyasiya riski ilə üzləşdi. Azərbaycana investisiya yatırımlarının 66% -də azalma müşahidə olundu. Dövlət olaraq müəyyən mənada daxili investisiyalar üçün müəyyən şəraitlər yaradılaraq iqtisadi inkişafın gücləndirilməsinə təkan verilmişdir. Gəlin, **İnvestisiya cəlbediciliyinin artırılmasında dövlətin rolu hansı səviyyədədir** sualına cavab tapaq. Hər bir dövlətin iqtisadi və siyasi problemləri vardır. Həmin problemlərə işsizlik, yoxsulluq, ekoloji tarazlığın pozulması, təhlükəsizlik, enerji kimi problemlər və digərlərini dövlət tərəfindən həllini gözləyəcək məsələlərdəndir. Bu problemlərin hamısının dövlət tərəfindən həll yollarının tapılmasını[9] gözləmək əvəzinə, strateji tərəfdaşlarla əməkdaşlıq etmək problemlərin daha az vaxta və rahat şəkildə həll edilməsinə köməklik yaradacaqdır. Bununla da yeni investisiya modellərini tətbiq etməklə dövlətin bu proseslərdə

---

8 AZərbaycan Respublikası İqtisadiyyat Nazirliyi,Dövlət İnvestisiya mühiti səh 2

9

tənzimləmə aparılmasına şərait yaradacaqdır. Ekosistem yaratmaq və dövlətin yatırım gündəliyinə daxil olmaq , müasir investisiya modeli kimi böyük yatırım layihələri üçün dövlətin rolunu təhlil edib, araşdıraq. Yeni investisiya modellərinin tətbiqi investisiya cəlbediciliyinin artırılmasına müsbət təsir edərək, inkişafına təkan verir. İlk öncə təsir yatırım modeli haqqında informasiya artıran və ya dövlətə, hər hansı müəssisənin dəstəyi ilə onun gerçəkləşdirilməsinə təsir edən milli strategiyanı müəyyən etməlidir.

Fransa[10], Kanada , Braziliya, Cənubi Koreya da investisiya mühitinin inkişafında dövlət aidiyyatı qurumlar yaradaraq, bu sahənin inkişafı üçün önəmli strategiyalar müəyyənləşdirmişdir. Braziliyada Sənayə nazirliyinin tərkibində " İnnovasiya və Yeni Biznes sabitliyi", bununla yanaşı Braziliyanın 10 illik təsirli investisiya strategiyasını təyin edən "Enimpacto" layihəsi irəli sürülmüşdür. Fransada "Ekoloji və İnkiluziv Dəyişikliklər Nazirliyi" təsirli investisiya modelinin təşviqi və hüquqi bazanın yaradılmasını öz üzərinə götürdü. Eyni zamanda, 2016- cı il tarixdə Fransa Respublikası tematik sərmayələri etməyi hədəfləyən "NOUESS"adlı qrum yaratmaqla 100 milyon avroluq təsir fondunun əsasını qoydu. Cənubi Koreyada "İnklüzv Maliyyə Agentliyi"nin əsası qoyulmuşdur. Təkcə bunlar deyil, investisiya tanıtımı üçün kütləvi şəkildə reklam çarxları, müzakirə debatları, konfranslar, təlimlər keçirməklə cəmiyyətdə müsbət marağa yol açır.

**İnvestisiya cəlbediciliyinin artırılmasında Azərbaycan dövlətinin rolu:** Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin apardığı islahatlar və tədbirlər sayəsində ölkəmizdə investisiya mühiti inkişaf mərhələsi yaşayır. Xarici investorların ölkəmizə cəlbi istiqamətində böyük işlər görülmüşdür. Cənab İlham Əliyevin 2006- cı ildə imzaladığı sərəncama əsasən , investisiya mühitinin yaxşılaşdırılmasından ötəri Azərbaycan İnvestistisiya Şirkəti (AİŞ) Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında göstəriş verdi. Bununla da ölkəmizdə investisiya mühitinin yaxşılaşdırılması istiqamətində mühim irəlləyişlər baş verdi. AİŞ- nin bütün səhmləri tamamilə Azərbaycan dövlətinə məxsusdur. İdarəçi orqan Müşahidə Şurasıdır. Azərbaycan İnvestisiya Şirkətinin əsas məqsədlərinə nəzər salaq :

- ✓ 1. Əlverişli[11] investisiya layihələrinə investisiya yatırmaq
- ✓ 2. Qeyri-neft sektorunun inkişafını təmin etmək
- ✓ 3. Muasir innovativ texnologiyaları ölkəmizə gətirərək investisiya proseslərini sürətləndirmək.

---

[10]Social Value UK,Coheu R. (2020) . Gov. UK,Big Society Capital,Bridges fund Managament, page 3
[11] Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi

- ✓ 4. Kapital riskinin azaldılması və idxal əvəzləyici proseslərinə təsiri
- ✓ 5. İqtisadi dövriyyənin artırılmasına töhfə vermək
- ✓ 6. Daxili və Xarici investorları investisiya qoyuluşlarına cəlb etmək

Xarici yatırımçılar Azərbaycan Respublikasının Qanunları ilə qadağan olunmayan bütün fəaliyyətlərlə məşğul ola bilərlər. Elə sahələr vardır ki, oraya birbaşa yatırım etmək qadağandır, dövlət tərəfindən xüsusi icazələr alınmalıdır. Xarici investorların[12]fəaliyyəti bəzi regionlarda yalnız müdafiə, milli təhlükəsizlik, ətraf mühitin və əhalinin mühafizəsi məqsədilə məhdudlaşdırıla və ya tamamilə qadağan oluna bilər. (maddə 7)Hər bir dövlətin xarici yatırımçıları cəlb etmək xüsusiyyətlərini şərtləndirən ən vacib amil yatırım yatıracaqları ölkədə investisiyaların təhlukəsiz şəkildə qorunması üçün lazım olan lazimi mühitin olmasıdır. Məhz Azərbaycan həmin ölkələrdəndir ki, yatırım edəcək investorun mülk varlığının , təhlükəsiz mühitdə fəaliyyət göstərməsində, vergi güzəştlərinin tətbiqi, gömrük rüsumlarının azaldılması, dövriyyə üçün lazimi vəsaitlərlə təmin edilməsində mühüm rola malikdir. Heç bir investor aktivlərinin, gəlirlərinin müsadirə olunma ehtimalı olan ölkələrə, siyasi sabitliyin olmadığı yerlərə investisiya etməkdən çəkinəcəkdir. Xarici investorların qorunması prinsipləri xıx -əsrin əvvəllərində Avropa ölkələri və Amerika Birləşmiş Ştatları tərəfindən müəyyən edilmişdir. Bununla yanaşı, qəbul edilən digər prinsiplər və əsas normalar da vardır. Məsələn ev sahibi olacaq ölkənin daxili işlərinə qarışmamaq, iqtisadiyyatına zərər vurmamaq, yatırımdan əldə etdiyi pul vəsaitlərini və gəlirlərini rahat şəkildə üçüncü tərəfə sərbəst şəkildə köçürmək imkanının yaradılmasına heç bir şəkildə müdaxilə edilmir.

**Azərbaycanda investisiya qoyuluşu etmək üçün əsas səbəblər :**

- ✓ 1. Sağlam İqtisadiyyat- Adambaşına düşən ÜDM- nin 4. 272 $ olması
- ✓ 2. Regional və Avropa , Asiya bazarlarına rahat çıxış imkanlarının olması
- ✓ 3. Strateji coğrafi mövqedə yerləşməsi hər zaman xarici investorlar üçün diqqət mərkəzində olmuşdur.
- ✓ 4. Əlavəli Demoqrafiyanın olması- gənc, dinamik işçi əhalinin olması
- ✓ 5. Rəqabətə davamlı işçi qüvvəsinin olması-yüksək səviyyəli ixtisaslı kadrların, işçi qüvvəsin rəqabətliliyi
- ✓ 6. Dövlət tərəfindən investisiya proseslərinin davamlı inkişafının artırılması üçün islahatların aparılması

[12] Xarici İnvestisiyanın Qorunması Haqqında AZƏRBAYCAN RESPUBLİKASINIM QANUNU,15 yanvar 1992

- ✓ 7. Liberal investisiya mühitinin olması -Xarci Birbaşa İnvestisiya yatırımlarının qoyuluşunda əngəlin olmaması, dövlətin təminatçı olaraq müdafiə etməsi
- ✓ 8. Qlobal Rəqabətlilik İndeksi [13]MDB ölkələri arasında 3-cü, 141 ölkə arasında 58-ci, Cəlb edilmiş Birbaşa Xarici İnvestisiya 7. 1 mlrd. $, Qeyri -neft süktoruna 2019-cu ildə qoyulmuş cəmi investisiya 19. 3 mlrd. $ təşkil etmişdir.

Bütün ölkələrdə investor cəlbi eyni əsasda olmasa da, demək olar ki, əsas cəhətləri fərqlilik təşkil etmir. Qanunvericiklə müəyyən olunmuş konsepsiyaların çoxu ümumilik təşkil edir. Hər bir dövlət üçün investisiya onun

İqtisadiyyatının əsas özəyini təşkil edir və investisiya ilə bağlı qərarları düzgün araşdırmalı, uyğun investisiya yatırımları üçün dövlət olaraq əlverişli şərait yaratmalıdır. Dövlət investisiya cəlbediciliyinin artırılması istiqamətində aşağıdakı prosesləri tənzimləməlidir ki, investisiya yatırımlarında müsbət nəticələr əldə etsin.

- ➢ İlk olaraq vergi sistemini təhlil etməli, vergi güzəştləri tətbiq etməlidir. İnvestorlar üçün vergi siyasəti çox önəmlidir, yatırımlardan qazanclı çıxması üçün az vergi tətbiqi, çox vergi güzəşti olan ölkələrə sərmayə edirlər. Bununla yanaşı, vergi məcəlləsinə dəyişiklik tarixləri mühüm elemetlərdəndir. Tez-tez vergi məcəlləsinə olan dəyişikliklər həmin ölkəyə investisiya qoyuluşu edən investor üçün çox risklidir.
- ➢ Dövlət maraqlarının xarici investisiyaya yönəlməsi müsbət haldır, lakin təkcə xarici investisiya cəlbi kifayət etmir, eyni zamanda ölkə regionlarının inkişaf etdirilməsi üçün daxili investisiya üçün də yatırımlar ayırılmalıdır ki, rayonların iqtisadi inkişafı yüksəlsin, müxtəlif sahələrdə ixtisaslı sahələr kompleksləşsin.
- ➢ Dövlət tərəfindən standartlar yaradılmalı və o istiqamətdə planlı inkişaf strategiyası aparılmalıdır.
- ➢ İnhisarçılığın yaranmasına və formalaşmasının qarşısına keçirilməlidir.
- ➢ Təbii sərvətlərin istifadəsini ölkə üzrə həyata keçirilməsinin təmin etməsinə şərait yaratmalıdır, özəlləşmə prosesinə dəstək olmalıdır.
- ➢ İnvestisiya ilə bağlı konfranslar, təlimlər, araşdırmalar aparılaraq yatırım edəcək sahibkarlara bu sahə üzrə nəzəri , praktiki, metodoloji, təhlil etmə bacarıqlarının inkişafına köməklik etmək

Azərbaycan Respublikasının vətəndaşı olmayan şəxslərin ölkəmizə sərmayə yatırımı etməsini Qanunvericiliyin müvafiq maddələri ilə tənzimlənir. Bura “digər dövlətlərin hüquqi şəxsləri,

[13] AZƏRBAYCAN İNVESTİSİYA ŞİRKƏTİ https://www. google. com

Azərbaycan Respublikasının vətəndaşı olmayan şəxslər, maliyyə təşkilatları" və digərlərini aid etmək olar.

Kapitalın sürətlə inkişaf etməsi nəticəsində inkişaf etməkdə olan ölkələrin bir-birləri ilə mövcud olan rəqabəti dinamik şəkildə artmağa başlayır. Azərbaycanda müşahidə etdiyimiz kimi, xarici investisiyaların artımı ilə kapitalda olan kəsr azalır, istehsalat prosesində ənənəvi istehsal alətləri yerinə , müasir dövrün tələblərinə uyğun modern texnologiyaların istifadəsi nəticəsində istehsalat prosesində məhsuldarlığın artmasına təkan verəcəkdir. Yeni xarici bazarlara çıxışın olmasına şərait yaradılaraq, bazar payı artacaqdır. Ölkələrin əksəriyyəti xarici investisiya cəlbi üçün müxtəlif tədbirlər planı hazırlayırlar. Xarici investisiya yatırımlarının ölkəyə cəlb edilməsi təşəbbüsü "məşğulluq mühiti"nə müsbət mənada ciddi təsir edir, " keyfiyyətli əməy"in inkişafına yönəlik addımlar atılır, "texnoloji avadanlıqlar"ın yenilənməsi və yeni texnoloji avadanlıqların təmin etməsinə köməklik edir. Yuxarıda qeyd etdiyimiz əsas nüanslara diqqət etsək, görərik ki, çox saylı ölkələr ölkələrində mövcud olan bu kimi problemlərin həllini ölkəyə xarici investisiya cəlb edərək faydalanmağa, təcrübə toplayaraq öz iqtisadiyyatlarına əlavə kapital qazandırmağa səy göstərirlər. İnvestisiya cəlbediciliyi baxımından dövlətlər müəyyən üsullardan istifadəyə yönəlik addımlar atırlar. Məsələn iqtisadiyyatı nisbətən güclü olan ölkələr nağd pul vəsaiti olmadan XBİ- ı ölkəyə sərmaya qoymaq üçün həvəsləndirici tədbirlər tətbiq edirlər. Nağd pul ehtiyatı olan ölkələrin XBİ-ə pul yardımı etməsi, faiz dərəcəsi aşağı olan kreditlərin təklifi, bir çox qrantlar, torpaq sahələrinin ayrılması kimi əsas resurslarda güzəşt etməklə situmullaşdırıcı addım atmış olurlar. Əksər ölkələrin bu kimi resursların qarşı tərəfə ötürülməsi üçün imkanları yoxdur, ona görə də həmin ölkələr vergi faizlərinin azaldılması, idxal vergilərinin aşağı salınmasının təmin edilməsinə, azad ticari zonalarının yaradılmasına və sairə bu kimi həvəsləndirici tədbirlər görürlər. Ölkəmizdə biznes əlaqələrinin və xarici sərmayədarların Azərbaycana yatırım etməsi üçün əlverişli investisiya mühiti vardır və bu mühitin yaxşılaşdırılması üçün cənab prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü strategiyası sayəsində həm daxili, həm də xarici investorların Azərbayacana sərmayə qoyuluşu etməyə marağı artmışdır. İnvestisiya layihələrinin gerçəkləşməsi üçün problemli situasiyaları hökümət araşdırır, infrastrukturun yenilənməsinə, yolların çəkilməsinə, işıq, qaz, telekomnikasiya xəttlərinin yenilənməsini həyata keçirir. Bununla da həmin ərazilərdə investisiya sərmayəsi üçün təşviqlər yaradır.

Dünyada hökm sürən qlobal problemlər, qeyri-stabil siyasi vəziyyətin olmasına baxmayaraq, Azərbaycan indiki dövrdə də investisiya cəlbediciliyini qoruyub saxlayır. Əvvəlki dövrlərdə ölkəmizə sərmayə yatırımı etmək istəyən ölkələr müəyyən qədər tərəddüd edirdilər. Səbəb

olaraq ölkəmizin müharibə şəraitində olması göstərilirdi. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin uzaq görən siyasəti , apardığı islahatlar, ordumuzun şücaəti nəticəsində işğal olunmuş torpaqlarımız geri qaytarılmış, bununla da ölkəmizə xarici investisiya axınları sürətlənmişdir. Xarici investorların maraqlarının ən etibarlı qoruyucusu olan Azərbaycanda makroiqtisadi sabitlik yüksək olduğu üçün investisiya qoyuluşu üçün heç bir əngəl gormu

## 1. 3 Azərbaycanda investisiya mühiti.

Müstəqillik illərində Azərbaycan Respublikasının iqtisadiyyatı bir neçə mərhələdən , eyni zamanda makroiqtisadi mərhələdən keçmişdir. Yüksək iqtisadi göstəricilərin əldə olunmasında ölkəmizdə investisiya mühitinin inkişaf etdirilməsi, investisiya cəlbediciliyinin yüksəldilməsində bir çox islahatlar aparılmış və bu islahatlar səmərəli nəticələr vermişdir. İnvestisiyanın bugünkü mərhələsi əlverişli investisiya mühiti üçün əsas mərhələ hesab olunur. İnvestisiya mühiti investorun rəftarına təsir edə biləcək bütün məsələ və situasiyaları özündə əks etdirən əsas anlayışdır. Hər hansısa ölkəyəyə yatırım qoymaq istəyən investor əvvəlcədən həmin ölkənin iqtisadiyyatın təhlil edib, araşdırır, ortaya çıxacaq mənfi və müsbət situasiyaları analiz edir, regional problemlər, ölkənin mövcud siyasi durumu araşdırılır, Kapital durumu müəyyənləşdirilir. Bu proseslərin nəticələri nə qədər yaxşı olarsa investorun həmin ölkəyə yatırım etməsi o qədər yüksək olacaqdır. Çünki risk az, qazanc çox olacaqdır. Əgər göstəricilər aşağı olarsa investor üçün risk çox, əldə olunacaq mənfəət az olacaqdır.

Daxili və xarici investorların cəlbedilməsi dövlət üçün əsas vacib məsələlərdən biri və bəlkə də birincisi olmalıdır. Çünki investorların cəlbedilməsi nəticəsində

1. Yeni iş yerləri açılacaq, işsizlik səviyyəsinin faiz göstəriciləri aşağı düşəcəkdir.

2. Yeni azad iqtisadi zonalar yaradılacaq

3. Müasir texnoloji avadanlıqlarının tətbiqi istehsal prosesinin sürətlənməsinə ciddi şəkildə təsir edəcək.

4. Dünya bazarlarına çıxışın əldə edilməsində müsbət göstərici olacaq

5. İstehsalatda modernləşdirmə prosesləri sürətləndiriləcək

Məlumdur ki, daxili və xarici investisiyalar kapital bazarının əsas hissəsini təşkil edir, buna görə də iqtisadi artım üçün mühüm rola malikdir. Ölkəmizin müəyyən etdiyi əsas strateji

hədəflərdən biri xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsidir. İnvestisiya qoyuluşu edən xarici şirkətlərin hüquq və mənfəətləri lazımi şəkildə dövlətimiz tərəfindən qorunmuşdur və bu proses davam edir. Mülkiyyətlərinin qorunması, ayrı seçkilik edilmədən bütün investorlara eyni şərait yaradılır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin[14] 15 yanvar 1992-ci il tarixli 57 nömrəli Sərəncamı ilə təsdiq olunmuş " Xarici investisiyaların qorunması haqqında Azərbaycan Respublikası Qanunu" və 13 yanvar 1995-ci il tarixli 952 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikası Qanunu". Əlavə olaraq, Azərbaycan Respublikası bəzi xarici ölkələrlə müqavilələr imzalayaraq ikiqat vergitutmanın ləğv edilməsi, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında razılaşmışlar. Ölkəmizdə iqtisadi cəhətdən islahatların davam etdirilməsi , biznesin inkişafı üçün dəstəkləyici mühitlərin formalaşması, neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun da inkişafına yönəlik tədbirlər planı həyata keçirilir. Azərbaycanda investisiya yatırımlarının gücləndirilməsi məqsədi ilə "Açıq qapı" siyasəti tətbiq olunur. Son dövrlərdə Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası sürətlənmişdir. 1995-2011-ci illərdə[15] ölkə iqtisadiyyatına yönəldilmiş 119 milyard dollar investisiyanın 60% -dən çoxu, yəni 63 milyard dollara yaxını xarici investisiyalar olmuşdur. 1995-2011-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş xarici investisiyaların 25, 5 milyard dolları qeyri-neft sektorunun, 37, 5 milyard dolları isə neft sektoruna yönləndirilmişdir

Qeyri-neft sahələrinə investisiya qoyuluşu edən yerli və xarici investorların marağına səbəb olacaq bir çox sahələr mövcuddur:

- ✓ Sənaye
- ✓ Nəqliyyat
- ✓ Ticarət
- ✓ Tikinti
- ✓ Kənd təsərrüfatı

---

[14] https://www. azerbaijans. com/content_1614_az. Html
[15] https://www. azerbaijans. com/content_1614_az. html Azərbaycan İnvestisiya Mühiti səh 3




| | Cəmi investisiyalar | Daxili investisiyalar | Neft sektoru | Qeyri-neft sektoru | Xarici investisiyalar | Neft sektoru | Qeyri-neft sektoru2 |
|---|---|---|---|---|---|---|---|
| 1995-2002 | 123473.6 | 3353.9 | 902.5 | 2451.7 | 9119.8 | 6105.3 | 3014.4 |
| 2003-2011 | 106247.8 | 52443.2 | 9024.1 | 43419.2 | 53804.5 | 31333 | 22471.5 |
| 1995-2011 | 118721.3 | 55797.1 | 9926.5 | 45870.6 | 62924.2 | 37438.3 | 25485.9 |

**Diaqram- 1. Mənbə : Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi**

Yuxarıdakı qeyd olunan qrafikdə 1995 -2011-ci illər aralığında Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşuın statistik göstəriciləri qeyd olunmuşdur. Dövlət tərəfindən aparılan düzgün siyasət nəticəsində müsbət dəyişikliklər edilmişdir. Neft sektorundan asılılığın aradan qaldırılmasından ötəri qeyri-neft sektoru və digər sahələrə investisiya sərmayəsinin artırılması nəticəsində müsbət dəyişikliklər baş vermişdir.

Ölkəmizdə davam edən iqtisadi islahatlar nəticəsində həm neft sektoru, həm də qeyri neft sektorunun inkişafına yönəlik tədbirlər tədbirlər hazırlanmışdır. Aparılan islahatlar nəticə vermişdir. 1995-2002- ci illərdə neft sektoruna yatırılan yatırımlar neft sektorunda üstünlük təşkil etmişdir, 2003-2011-ci illərdə neft sektoruna nisbətən qeyri neft sektoruna investisiya

üstünlük təşkil edir.




**Diaqram -2. Mənbə : http://www.anl.az/down/meqale/ses/2011/yanvar/151563.htm**

Azərbaycana investisiya edən investorların rahatlığının təmin etmək üçün azad iqtisadi zonaların yaradılması qarşıya çıxa biləcək problemlərin həlli baxımından vacib qərar sayılır. Məhz belə layihələrdən biri də Ələt Azad İqtisadi Zonasının yaradılmasıdır. Bu iqtisadi zonanın əsas üstünlüklərindən biri transmilli nəqliyyat marşurutuna çıxışın olmasıdır. Bununla da logistika sahəsində irəlləyişləri dəstəkləyir. Ümumi sahəsi 850 hektar olacaqdır. Xarici mütəxəssislərin dəvət olunaraq burada araşdırma və təhlillər apararaq investisiya imkanlarının genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparılacaqdır. Ələt İqtisadi Zonası investisiya yatırımlarının genişləndirilməsi baxımından mühüm layihədir və bu kimi layihələrin həyata keçirilməsi üçün dövlət rəhbərliyi tərəfindən dövlət proqramları həyata keçirilir, maarifləndirici tədbirlər, seminarlar təşkil olunaraq investisiya cəlbediciliyinə şərait yaradılır.

Digər dövrlərdən fərqli olaraq, müasir dövrümüzdə Xarici sərmayəçilərin ölkəyə etdikləri yatırımlar daha çoxdur. Ölkəmizə investisiya edən birgə və xarici sərmayəçilərin əsas diqqət etdikləri sahələrə sənaye, ticarət, tikinti və nəqliyyatdır. Xarici investorlarla birlikdə ölkəmizdə müəssisə və zavodların yaradılmasında ən çox pay sahibi olan ölkələr sırasında Türkiyə Cümhuriyyəti 27, 6% ilə 1-ci gəlir. İngiltərə 11. 7 %-ni, Rusiya Federasiyası 6. 8%, İran 6, 2%-i, Amerika 5, 9 % -ni , Almaniya isə 2, 9 % -ni təşkil edir. Bu ölkələrlə yanaşı digər Avropa ölkələrini də göstərmək olar, faiz nisbəti bu ölkələrə nisbətən azlıq təşkil edir.




**Diaqram 3**

**Mənbə : https://www.economy.gov.az/az/page/iqtisadiyyat/investisiya/investisiya-muhiti**

Sahibkarlığın inkişaf etdirilməsi və biznesdə əlverişli mühitin yaradılması və inkişaf etdirilməsi üçün ölkəmizdə bir çox islahatlar həyata keçirilmişdir. Bununla əlaqədar dövlət rəhbərliyi tərəfindən vahid pəncərə sistemi yaradılmışdır. Biznes mühitinin yaxşılaşdırılması və dövlətin bu sahəyə diqqətinin artırılması üçün bir çox qurumlar fəaliyyət göstərir. Onlardan biri də Azərbaycan İnvestisuya Şirkətidir. İnvestisiya Şirkəti 2006-cı ildə fəaliyyətə başlamışdır. Onun əsas qayəsi investisiya ilə əlaqəli dövlət siyasətini dəstəkləmək, investisiya ilə bağlı əsas problemlərin həlli yolların araşdırılıb tapılması və onların aradan qaldırılmasına çalışmaqdır. İnvestisiya cəlbediciliyinin artırılmasında mühüm əhəmiyyətə malik olan bir çox layihələr həyata keçirilmiş və müsbət təsirləri olmuşdur. Bu layihələr təkcə ölkəmiz üçün deyil, eyni zamanda xarici ölkələr üçün də mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda qeyri-neft sektorunda investisiya yatırımlarının artırılmasında Azərbaycan İnvestisiya Şirkətinin (AİŞ) özünə məxsus rolu vardır. Ən çox quşçuluq, qida emalı, logistika, dağ-mədən, alternativ enerji, əczaçılıq kimi sahələrə yatırımlar edilmişdir və bu proseslər hal-hazırda davam edir.

Azərbaycanda dövlət siyasəti, bir çox ölkələrdə olduğu kimi , bir çox layilələrə xüsusən də böyük layihələrə investisiya qoyuluşuna milli iqtisadiyyatın dəstəklənməsi üçün mühüm vasitə kimi yanaşır. Dünya ölkələrinin əksəriyyət faizi xarici kapitalın ölkəyə cəlb edilməsi, yatırımların artırılması üçün uyğun investisiya mühitinin inkişaf etdirilməsi  iqtisadi artım, milli dövlət maraqları, iqtisadi və digər təhlükəsizlik məsələləri kifayət qədər vacib olan əsas nüanslardan hesab olunur. Bir çox elmi araşdırmalar və təhlillər nəticəsində ölkəmizdə investisiya siyasətinin mühüm istiqamətləri müəyyənləşdirilmiş və son zamanlarda investisiya fəaliyyəti qiymətləndirilmişdir. Araşdırmalardan belə qənaətə gəlinir ki, Azərbaycan

***Ölkə iqtisadiyyatına yönəldilmiş xarici investisiyalar(mln ABŞ dolları)***




| | Cəmi xarici investisiyalar | Maliyyə Kreditləri | Ondan neft sektoruna kreditlər | Birbaşa investisiyalar | Neft bonusu | Portfel investisiyalar | Digər investisiyalar |
|---|---|---|---|---|---|---|---|
| 1995-2002 | 9119.7 | 1652.3 | 0 | 7467.4 | 0 | 0 | 0 |
| 2003-2011 | 53804.5 | 14684.4 | 727.8 | 34264.2 | 192.8 | 781.7 | 3881.4 |
| 1995-2011(ümumi) | 62924.2 | 16336.7 | 727.8 | 41731.6 | 192.8 | 781.7 | 3881.4 |

**Diaqram- 4. Mənbə : https://stat.gov.az/news/index.php?lang=az&id=1649**

iqtisadiyyatına son illərdə investisiya cəlb edilməsi yetəri qədər yüksək olmuşdur. Bu sahədə təkmilləşdirmə işlərinin aparılması sürətləndirilmişdir. Müsbət istiqamətdə müəyyən tədbirlər görülmüşdür. Müəssisələrdə beynəlxalq səviyyədə qəbul olunmuş standartlardan istifadə edilməsi, maliyyələşdirmə proseslərinin sürətləndirilməsi, yeni nəsil texnoloji avadanlıqların istifadəsi, sahibkarlıq mühitinə lazımı dəstəyin göstərilməsi və sairə kimi müddəaları qeyd etmək olar. Azərbaycan hökumətinin investiya qərarlarının əsas məğzini iqtisadiyyatın inkişafı

üçün sosial sahənin inkişafı istiqamətində  resursların cəlb edilməsi istiqamətində mühitin formalaşmasıdır. İlk olaraq 1994-cü il  20 Sentyabr tarixində  “ Azəri-Çıraq-Günəşli” layihəsi üzrə xarici şirkətlərlə “Əsrin Müqaviləsi” imzalanmışdır. Bununla da investisiya qoyuluşu istiqamətində ölkəmiz mühüm addım atmış, xarici investorların diqqəti Azərbaycana yönəlmişdir. Bununlada 1994-cü ildən 2023 – ilə  qədər  imzalanmış neft-qaz müqavilələrinə yatırım qoyan 400-dən çox şirkətlər mövcuddur. Qiymətlərin tənzimlənməsində əsaslı təhlillər aparılmış, pul vəsaitlərinin dövriyyəsinin, valyuta  proseslərinin nizama salınması, vergi, gömrük bazarlarının formalaşdırılması,  yerli və xarici investorların inkişafı istiqamətində ciddi tədbirlər görülmüşdür.  Azərbaycan nizamlama prosesini hər bir sahədə uğurla davam etdirir, belə ki dünyada davam edeən geosiyasi vəziyyətin gərgin olması, iqtisadi böhranlar, infilyasiya , təhlükəsizlik problemləri və sairə bu kimi məsələlərin ölkəmizdən kənar cəryan etməsi Azərbaycana investisiya qoyuluşu edəcək xarici şirkətlərin sayının çoxalmasına imkan yaradır.

Neft -qaz sektoruna yatırılan investisiyalar yetəri qədərdir. Bu sektordan asılılığı azaltmaqdan ötəri, qeyri-neft sektoruna investisiya axınlarını təmin etmək lazımdır. Bunun üçün dövlərat səviyyəsində layihə və tədbirlər həyata keçirilməli, həmin sahələrə yatırımın faiz dərəcələrini artırmaqdan ötəri həmin sahələrin nəzərə çarpan xüsusiyyətlərini təhlil etmək, layihələrdə əks etdirmək lazımdır. Kənd təsərrüfatı, tikinti sahələri, qida emalı sənayesi və digər sahələrin inkişafı yoxsulluq və işsizlik problemlərinin həlli istiqamətinə yönəlik olmalıdır. Yatırım sahəsində obyektivliyin və biznesə dəstək mühitinin formalaşması  üçün ölkəmizdə sahibkarlığa dəstək, əlverişli iqtisadi mühitin inkişafı və digər vacib məsələlərin həlli məqsədilə Azərbaycan[16] Respublikasının Prezidenti İlham Əliyev cənablarının  “Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin  “bir pəncərə” prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında” 2007 -ci il 25 oktyabr tarixli Sərəncam imzalamışdır. Bununla da, vahid dövlət qeydiyyat orqanı Azərbaycan Respublikası Vergilər Nazirliyi müəyyən edilərək,  2008-ci 01 yanvar tarixində fəaliyyətə başlanılmışdır. Başlama prosedura 15 dən 1-ə və sərf olunan zaman 30 gündın 3 günə endirilmişdir.

---

[16] https://www. azerbaijans. com/content_1614_az. html ( Azərbaycan İnvestisiya Mühiti) 2021 -ci il,səh 4

## Qarabağ iqtisadi regionuna investisiya axınlarının cəlb edilməsi:

Uzun illərdir ki, Azərbaycanın əsas ayrılmaz hissəsi olan Qarabağ və ətraf rayonları erməni terrorçu dəstələri tərəfindən işğala məruz qalmışdır. “44 günlük” Vətən müharibəsində Azərbaycanın şanlı ordusu və rəşadətli igidləri tərəfindən torpaqlarımız geri qaytarılmışdır. Bununla da regionun iqtisadi əlaqələrinin inkişaf etdirilməsi , geosiyasi proseslərin tənzimlənməsinə birbaşa dövlət nəzarət edir. Qarabağ və Şərqi Zəngəzurda iqtisadi əlaqələrin inkişaf etdirilməsi, biznes mühitinin yaxşılaşdırılması üçün investisiya mühitinin olması mütləqdir. Bunun üçün dövlətin müəyyənləşdiriyi strateji layihə və planları , siyasi arenada söz sahibi olması əsas şərtlərdən hesab olunur. Ölkə başçısının qəbul etdiyi qərarlara əsasən “2022-2026- illərdə sosial-iqtisadi inkişaf Stategiyası”nda iqtisadi əlaqələrin inkişaf etdirilməsi və ölkəyə əlavə investisiya cəlb ediciliyinin artırılmasının əsas istiqamətləri nəzərdə tutulmuşdur. Qarabağ və ətraf rayonlara investisiya axınlarını təmin etmək üçün dövlətin müəyyənləşdirdiyi qanun layihələri, seminarlar, proqramlar hazırlanmışdır. İlk öncə vergi güzəştlərinin verilməsi, mənfəət vergisinə qoyulan güzəştlər və sairə göstərmək olar. İnvestisiya cəlbediciliyinin təminatçısı dövlət olmalıdır. Bunun üçün də Qarabağ regionu üçün tikinti-bərpa işlərinə artıq başlanılmışdır. Beynəlxalq və ölkə daxili uçuşların həyata keçirilməsi üçün hava limanları inşa edilib istismara verilib, avtomobil yolları yenidən müasir texnologiya əsasında qurulur, dəmir yollarının inşasına başlanılmış, çox saylı körpülərin tikintisi davam edir. Bununla yanaşı xarici investorlarla birgə layihələr gerçəkləşdirilərək iqtisadi əlaqələrin güclənməsinə təkan verir. Ən vacib məsəllərdən biri və bəlkədə birincisi nəqliyyat dəhlizinin açılmasıdır. Bu dəhliz Azərbaycanın tarixi torpaqları olan Zəngəzurla Naxçıvan MR-nı və Türkiyə Cümhuriyyətini birləşdirərək yeni dəhliz yaradacaqdır. Bu da ölkə və dünya səviyyəsində , xüsusilə də türk dövlətləri üçün mühüm və əlamətdar hadisədir, belə ki, ticari əlaqələrin sürətlənməsi, maneəsiz hərəkəti, iqtisadi münasibətlərin genişlənməsinə töhfə verəcəkdir. Ölkəmizdə olan su ehtiyyatlarının dörddə biri Qarabağdadır. Külək və günəş enerji potensialı yüksəkdir. Ən böyük investisiya layihəsi etməyə maraqlı olan İngiltərənin BP şirkəti Zəngilan-Cəbrayıl iqtisadi rayonlarında günəş enerjisi layihəsinin gerçəkləşməsi üçün Azərbaycan Energetika Nazirliyi ilə müqavilə imzalayaraq bu layihəyə investisiya etmişlər. Laçın və Kəlbəcər rayonları da külək enerjisinin əldə edilməsi üçün çox əlverişlidir. Qarabağ və ətraf regionlara investisiya qoyuluşu edəcək dövlətlərə Türkiyə, İtaliya , Böyük Britaniya, Yaponiya, Çin, İsrail, digər dövləti misal göstərmək olar. Ən çox ölkəmizə investisiya edəcək ölkə Türkiyədir. Artıq avtomobil yollarının çəkilməsi üçün Türkiyə ilə əməkdaşlıq edilir. Tikinti, sənaye, emal sənayenisinin, kənd təsərrüfatı və energetika layihələrinin həyata

keşirilməsində ən çox Türkiyə və İtaliya şirkətləri ilə əməkdaşlıq edilir. İtaliya ilə enerji sahəsində müttəfiq olmağımız Qarabağa investisiya qoyuluşu edilməsində İtaliyanın bir çox şirkətləri maraqlıdır. Ən çox energetika, kənd təsərrüfatı , tikinti layihələrini qeyd etmək olar. Azərbaycana investisiya qoyuluşu etməkdə maraqlı olan dövlətlərə Avropa İttifaqını ölkələrini vurğulamaq lazımdır. Avropa İttifaqı ölkələrinin müəssisələrinin 54% - indən çoxu Qarabağa sərmayə qoymaqda maraqlıdırlar. Ən mühüm layihələrdən biri də logistika layihəsidir, məhz bu layihə sayəsində ciddi müsbət nəticələr əldə ediləcəkdir. Qarabağ və ətraf rayonlarda iqtisadi əlaqələrin gücləndirilməsi üçün hansı sahələr perispektivlidir ? sualına 160 nəfərlik sorğu keçirilmişdir. Sorğu iştirakçılarının əksəriyyəti 20-45 yaş aralığında olan şəxslərdir, həmin şəxslərin 87% - i ali təhsilli, 18% - isə orta təhsillidir. Respondentlərin 89 % -ə yaxınının Qarabağ və ətraf ərazilərdə onların yaşaması üçün lazım olan təhlükəsizlik və yaşam xərclərini qarşılayacaq imkanların ysaradılması ilə öz yaşamlarını orada davam etdirə biləcəklərini qeyd edirlər. Sorğunun nəticəsini aşağıdakı qrafikə əsasən təqdim edirik. Qrafik 1. Qarabağ və ətraf ərazilərdə iqtisadi əlaqələrin inkişafı üçün hansı sahələrə sərmayə yatırmağa ehtiyac var? sualına respondentlərin cavablarını təqdim edirik.




**Diaqram – 5**

**Mənbə:https://www.turan.az/ext/news/2020/11/free/analytics/az/130426.htm**

Aparmış olduğumuz sorğunun nəticəsinə əsasən, 26% (41 nəfər) kənd təsərrüfatı üzrə, 23% (37 nəfər) nəqliyyat-logistika sahəsi üzrə, 21% (34 nəfər) turizm sektoru üzrə, 11% ( 17 nəfər) tikinti sahəsi üzrə , 9% (14 nəfər) xidmət sahəsi üzrə, 7 % ( 12 nəfər) sənaye, 3% (5 nəfər) isə digər sahələr üzrə Qarabağ və ətraf rayonlarda qeyd olunan sahələr üzrə əlverişli mühitin olduğunu bildirərək, bu sahələrə investisiya qoyuluşu etmənin gələcəkdə müsbət nəticələr verəcəyini vurğulamışlar. Araşdırmanın yekunu olaraq, belə bir nəticəyə gəlmək olar ki, işğaldan azad olunmuş ərazilərimizdə mövcud olan mülayim iqlim şəraiti, təbii resursların çoxluğu , kənd təsərrüfatının inkişafı üçün otlaq sahələrinin bolluğu bu sahəyə məxsusi marağı daha da artırmışdır. Bunu sorğunun nəticəsindən də müşahidə etmək olar. Kənd təsərrüfatının inkişaf etdirilməsi üçün dövlət proqramları tərtib edilmiş, sahibkarlara diqqət və qayğı artırılmışdır.

Yuxarıda qeyd etdiyimiz sahələrlə yanaşı, digər sahələr də bostançılıq, meşəçilik, suvarma əkinçiliyi , heyvandarlıq kimi sahələrə də maraq döğurmuşdur. Bu sahələrin düzgün tənzimlənməsi üçün ərazinin coğrafi strukturundan əlverişli şəkildə faydalanmaq lazımdır. Beləliklə də bu sahələrin inkişafı neft sektorundan asılılığı aradan qaldıracaq, qeyri-neft sektorunun inkişafına güclü təkan verəcəkdir. Qarabağ və ətraf ərazilərdə yaşıl iqtisadiyyata daxil olan sahələrin inkişaf etdirilməsi əsas məsələlərdən biridir. Mədənçıxarma, metalurgiya, trikotoji və bu kimi sahələlərin inkişafı üçün Pakistan, İngiltərə, Turkiyə, İtaliya ölkələrinin təcrübəsindən faydalanmış, həmin ölkələrin müəyyən olunmuş şirkətləri ilə investisiya layihələrinə start verilmişdir. Türkiyənin nəhəng şirkətlərindən biri olan GOSB ilə texnologiyalar parkının yaradılması ilə bağlı ölkəmizlə müqavilə bağlanılmışdır. Bununla yanaşı , Türkiyə Cümhuriyyətinin “Kolin İnşaat” şirkəti ilə də bərpa işlərində uğurlu əməkdaşlıq edilir. “Kolin İnşaat” Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikilməsində iştirak edir. Qarabağa investisiya edən ölkələrə Çin və İsrail dövlətlərini də qeyd etmək lazımdır. Ümumiyyətlə təkcə işğaldan azad olunmuş ərazilər deyil, üyni zamanda Azərbaycanın digər regionlarına da investisiya qoyuluşu etmək üçün əlverişli mühit vardır. Regionların inkişaf etdirilməsi dövlətimizin daim diqqət mərkəzindədir, bununla da investisiya sərmayələrinin axınlarında sürətlənmə müşahidə edirik. Bunu statistic göstəricilərlə göstərə bilərik. Diaqram da Azərbaycan Respublikasının əhalisinin 2000-2017 ci illəri əhatə edən dövrlərdə ölkənin qeyri-neft sektoruna Birbaşa Xarici İnvestisiya qoyan ölkələrin sitatistik

göstəriciləri verilmişdir.




**Diaqram 2. Qeyri-neft sektoruna BXİ-nin illər üzrə dinamikası (mln. ABŞ dolları) və onun qeyri-neft ÜDM-nə nisbəti (faizlə)** (*Mənbə: DSK-nın məlumatları əsasında hesablanıb*)

**Diaqram -6**

**Mənbə[17] :**Azərbaycan Sitatistika Komitəsindən götürülmüşdür.

İl ərzində[18] ölkənin qeyri-neft sektoruna cəlb edilən BXİ-nin məbləği 2008-ci ildə 500. 0 mln dollar, 2012-ci ildə isə 1. 0 mlrd. dollar səviyyəsinə çatdı. 2003-2014-cü illər dövründə qeyri-neft sektoruna cəlb edilən BXİ-nin məbləğində tədrici artım müşahidə olunsa da, son 3 ildə (2015-2017-ci illərdə) kəskin dalğalanma (volotillik) baş verib: belə investisiyaların məbləği əvvəlki illə müqayisədə 2015-ci ildə 34. 7% azalıb, 2016-cı ildə 98. 3% artıb (1. 7 mlrd. dollar səviyyəsinə çatıb), 2017-ci ildə isə yenidən 52. 4 faiz (yəni 2 dəfədən çox) azalıb (*diaqram 2*). Azərbaycanın neft sektoruna cəlb edilən BXİ-nin neft sektoru üzrə illik ÜDM-ə nisbəti 2007-ci ilədək hər zaman 20%-in üzərində olub (hətta 2004-cü ildə 150%-i ötüb), 2008-2013-cü illər dövründə 10-20% aralığında dəyişib, 2015-ci ildən sonra isə yenidən 30%-in üzərində qərarlaşıb. İqtisadiyyatı və ixracat prosesini inkişaf etdirməyi qarşısına əsas proetitet məsələ kimi qoyan Azərbaycan neft-qaz sahələrindən gələn gəlirlərdən asılılığı azaltmaq üçün qeyri-neft sektoruna Birbaşa Xarici İnvestisiya şirkətlerinin cəlb edilməsi məqsədi üçün onların ölkəmizə investisiya qoymasının qarşısında duran əsas problemlərin həlli istiqamətində mühüm

[17] https://www. stat. gov. az/
[18] Azərbaycan Respublikası Sitatistika Komitəsi,səh 3, https://www. stat. gov. az/

addımlar atmışdır. Belə ki son 7 ildə hökümətin qəbul etdiyi qərarlar və onlardan yaranan müsbət nəticələr investisiya mühitinin inkişafına şərait yaratmışdır. Ümumiyyətlə, ölkəmiz investisiya cəlbediciliyinin artırılmasında bir çox qabaqcıl ölkələrin təcrübəsindən bəhrələnmiş, ölkəmizdə investisiya yatırımlarının artırılmasında geniş şəkildə tətbiq olunmuşdur. Dövlətimizdə [19]siyasi sabitliyinin mövcud olması, milli, dini, irqi tolerantlığı, güclü iqtisadi potensiala malik olması, cəlbedici biznes , investisiya mühitinin olması, əlverişli tranzit mövqeyinin olması investisiya yatırımları üçün əsas prioritet məsələlərdən hesab olunur. Beynəlxalq müqavilələrdə qeyd olunan öhtəliklərin tam olaraq icra edilməsi nəticəsində Azərbaycan dünya üzrə ən etibarlı tərəfdaş dövlət kimi tanınır. Bu gün Avropada enerji təhlükəsizliyinin təmin edilməsində ölkəmiz mühüm əhəmiyyət kəsb edir. Qeyri-neft sektorunun inkişafı istiqamətində ölkəyə investisiya yatırımlarının çoxalması, ixracatın artırılması, tərəfdaş ölkələrin tapılması qarşıya qoyulan vacib məsələlərdəndir. Xarici ölkələrlə ölkəmiz arasında investisiya təşviqlərinə dair çoxlu müqavilələr imzalanmış, bəzi ölkələrlə ikiqat vergitutma ləğv edilmişdir. Azərbaycan uzun müddətdir ki, Xarici Birbaşa İnvestisiyanın həcmini artırmaq üçün tərəfdaş ölkələrlə beynəlxalq investisiya sazişi bağlamışdır.

# II Fəsil: Müasir dövrdə vergi siyasətinin investisiya mühitinə təsiri.

## 2. 1 İqtisadiyyatın tənzimlənməsində vergi siyasətinin rolu.

Vergi hər bir ölkənin iqtisadi fəaliyyətinin tənzimlənməsi və inkişaf etdirilməsini həyata keçirən mühüm vasitələrdən hesab olunur. Vergilər dövlət qurumları tərəfindən fiziki şəxslər və ya korporasiyalardan gəlirlərinin müəyyən faizinin dövlət tərəfindən məcburi tutulmasıdır. Bu anlayış qədim dövrlərə söykənir. Qədim dövrlərdə insanlar qəbilə halında məskunlaşdığı vaxtlarda qəbilə başçıları ov ovlandığı zaman ovdan müəyyən pay götürürdülər.

[19] (https://xalqqazeti. com/pdf/xalq%2012%20mar%20OPT. pdf)

Bu hadisələr zaman keçdikcə müəyyən dəyişikliklər keçərək müasir vergi sisteminin yaranmasına təkan vermişdir. Əsas məqsəd dövlət xərclərinin maliyyələşdirilməsidir, əvəzsiz və məcburi ödənişdir. Dövlətin maliyyələşmə siyasətinin əsasında vergilər dayanır. Verinin bir çox növləri vardır ki, onlara gəlir vergisi, əmlak vergisi, korporativ vergi, satış vergisi, əmlak vergisi, tarif vergilərini qeyd etmək olar. Vergi dövlətin inkişafının özəyini təşkil edir və bunun üçün dövlət tərəfindən tənzimlənmiş əsas müddəalar vardır, gəlin həmin maddələrə nəzər salaq:

**1. Mənfəət səviyyəsinin tənzimlənməsi**-Mənfəət səviyyəsinin tənzimlənməsinin ən etibarlı və mühüm hissəsi vergilərdir. İnvestisiya qoyuluşu edəcək kiçik və orta sahibkarların reallaşdıracaqları sərmayənin məbləğini müəyyən edir, yarana biləcək mənfi situasiyaların qarşısını alaraq, ona uyğun vergi faiz dərəcələrini müəyyənləşdir.

**2. Maliyyə siyasətinin tənzimlənməsi-**Vergi**,** maliyyə proseslərinin inkişaf etdirilməsi və ona yönəlik prosedurların həyata keçirilməsini təmin edir. Əsas göstəricilərinə vergi qanunvericiliyi, vergi dərəcələri və vergi əməliyyatları təşkil edir. Vergi dərəcələrinin düzgün və obeytik müəyyənləşdirilməsi maliyyə siyasətinin inkişaf xüsusiyyətlərini artırır.

**3. Sosial müqavilələşmə-**Vergi sistemi sosial müqavilələşmə prosesində də aparıcı rola malikdir. Bütün ölkələrdə vergi sistemi eyni ola bilməz, hər bir ölkənin qanunvericiliyi ilə müəyyən etdiyi vergi qanunvericiliyi vardır. Ona görə də sosial siyasətin müəyyənləşdirilməsi zamanı vergi dərəcələri və sosial müqavilələşmə çox əhəmiyyətlidir.

Yuxarıda qeyd olunan müddəalardan da görünür ki, bir ölkənin ekonomik resurslarını tənzimləmək və maliyyəsiyasətini müəyyənləşdirmək üçün vergi əsas vasitədir. Daxili və xarici siyasətlərin inkişaf etdirilməsi, əlaqələrin dinamik analizini inkişaf etdirmək üçün vergi siyasətini düzgün tənzimləmək lazımdır. Vergi sisteminin daxili proseslərə təsirinin necə yansımasını qeyd etmək üçün , müəyyən qədər araşdırma aparılmalı, həmin ölkənin vergi məcəlləsi təhlil olunmalıdır. Daxili təsir kimi istehsalat, qeyri-istehsalat, xidmət sahələri, ölkədaxili ticari əlaqələrin inkişafı. kiçik və orta sahibkarlıq subyektlərinin inkişaf dinamikasının artırılması, fabrik və zavodların tikilməsi, yeni iş yerlərinin açılması, sənayeləşmə və sairə proseslərin artım tempinin yüksəlməsinə və ya azalmasına səbəb ola bilər. Xarici təsir kimi isə vergi sistemi ölkələr arasında ticarət əlaqələrinin inkişaf etdirilməsi, idxal, ixrac əlaqələrinin möhkəmləndirilməsi, qarşılıqlı şəkildə vergi güzəştlərinin tətbiq edilməsi əsasında mühüm əhəmiyyət kəsb edir.

Hər bir ölkənin vahid vergi siyasəti olduğu kimi, Azərbaycan Respublikasınında vahid vergi sistemi, vergi məcəlləsi vardır. Ölkəmizdə vergi sistemi Azərbaycan Respublikasının Vergilər Məcəlləsi tərəfindən qəbul olunmuş qayda və qanunlar əsasında idarə olunur. Vergilər Məcəlləsi , ölkə daxilində həyata keçirilən əməliyyatlardan əldə edilmiş mənfəətdən dövlətin müəyyənləşdirmiş olduğu vergi növlərindən tutulacaq məcburi və əvəzsiz ödənişlərin dövlət xəzinəsinə ötürülməsini təmin edir. Vergilər Məcəlləsində əks olunmuş bir çox vergilər mövcuddur. Həmin vergilər içərisində Əlavə Dəyər Vergisi (ƏDV) də vardır. Ümumi dəyəri 2000 manatdan yüksək olan mal və xidmətlərin satışından əldə edilən vergi faizidir.

İqtisadiyyatın inkişaf dinamikasının artırılması inkişaf etməkdə olan ölkələrin öz maliyyə resurslarının düzgün istifadə etməsindən çox asılıdır. Bunun üçün də inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr davamlı investisiyaların ölkəyə cəlb edilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirirlər. Hər bir ölkənin vergi siyasəti onun iqtisadi proseslərinin tənzimlənməsinin əsas qayəsini təşkil edir. Bəzi ölkələr sərt, bəziləri isə yumuşaq vergi siyasəti tətbiq etməklə ölkələrinə investisiya yatırımlarını artırmaqla iqtisadi əlaqələrini gücləndirilər. Vergi yükünün yüksək olması iqtisadi cəhətdən deformasiya yaradır. İnvestorlar üçün gəlirin, işin və əməyin qiymətləndirilməsi üçün vergi bazası, tariflər və digər şərtlər müəyyənləşdirilərkən biznesin inkişafı və fəaliyyətin səmərəliyinin artırılması üçün dövlət dəstəyi vacibdir. Bunun üçün də vergi güzəştlərinin tətbiqi mühüm hesab olunur. Beynəlxalq vergi rəqabəti [20] bir çox vergi situmullarının arxasında mühüm qüvvədir. (Klemm 2010). Bir çox inkişaf etməkdə olan ölkələr xarici investorlar üçün vergi yükünü azaltmaq üçün vergi güzəştlərindən istifadə edirlər. Nəzəri cəhətdən əksər modellər yalnız ümumi korporativ vergi dərəcələrinin investisiyaya təsirinə diqqət yetirir. Yalnız çox az tədqiqatçılar daha mürəkkəb sistemləri , məsələn vergi güzəştləri olan sistemləri araşdırırlar. Məsələn Keen (2002) göstərir ki, [21] bütün kapital eyni dərəcədə mobil olmadıqda , ən mobil fəaliyyətləri hədəfləyən vergi güzəştləri vergi rəqabətinə rasional cavab ola bilər. Yalnız ən mobil fəaliyyətlər üzrə effektiv vergi dərəcələrini azaltmaqla ölkələr vahid vergitutmanın azaldılması ilə müqayisədə gəlirlərə qənaət edə bilərlər.

Korporativ vergilər yatırım ediləcək şirkətlər tərəfindən sərmayə qoyulan ölkələrdəki vergi dərəcləri və onların üstünlüklərinə görə müəyyənləşdirilir. İnvestisiya cəlbediciliyinin artırılması üçün təkcə vergi güzəştlərinin tətbiq edilməsi kifayət etmir. İqtisadi cəhətdən güclü

---

[20] Aleksandr Klemm (2010)Beynəlxalq Vergi və Dövlət Maliyyəsi , C. 315-336

[21]F.ƏMəmmədov,A.F.Musayev. (2009) Biznes Vergi Təşviqlərinin Səbəbləri, Faydaları və Riskləri səh 98

struktura malik olan dövlətlərdə vergi güzəştləri müsbət nəticələr verir. Birbaşa xarici investisiyalarda vergi dərəcələrinə tətbiq olunacaq dəyişikliklər diqqətli analiz

edilməli və düzgün qərar verilməlidir, çünki ölkələrə görə vergi dərəcələrinin müəyyənləşməsi əsas məsələlərdən hesab olunur. Bu [22] investisiyaların davamlılığını təmin etmək üçün korporativ əməliyyatların səmərəliyini artırmaq lazımdır. Ölkələr arasında investisiya yatırımlarının müəyyənləşdirilməsi zamanı vergi dərəcələri mühüm faktordur. Korporativ vergi dərəcələrinin azaldılmasının əsas məqsədi investisiya imkanlarının artırılması, daxili və xarici şirkətlərin investisiya yatırmı etməsi üçün şərait yaradır. Ümumiyyətlə bütün korporativ vergi faizlərinin azaldılması investisiya istiqamətinə yönəldilməmişdir. İnvestisiya istiqamətinə yönləndirilmiş korporativ vergi güzəştləri investisiya təşviqi kimi dəyərləndirilməsindən ötəri müəyyən mənada şərtləndirilməlidir. Bəzən korporativ vergilərin ümumilikdə azaldılmasını investisiya güzəşti kimi qiymətləndirirlər, bu tamamilə yanlışdır. İnvestisiya təşviqi əvvəlcədən müəyyənləşdirilmiş sektor, bölgə və ya kapital qoyuluşu müqabilində verilir. İnvestisiya qoyuluşu etmiş şirkətlər hər halda və hər zaman gəlir gətirməlidir yanaşması doğru bir yanaşma tərzi deyil, ölkədə və ölkə xaricində baş vere biləcəcək mənfi iqtisadi proseslər-bir sözlə infilyasiyalar investorların gəlir itkilərinə də ciddi problemlər yaradır, maliyyə sıxıntılarının yaranmasına səbəb olur. Bu zaman təkcə korporativ vergi güzəştləri kifayət etmir, dövlət ümumilikdə həmin infilyasiyanın aradan qaldırılması üçün həvəsləndirici addımılar atmalı, vergi güzəştlərin müəyyən bir zaman çərçivəsində artırılmasında da maraqlı olmalıdır. Məsələn, aşağı dərəcəli[23] korporativ vergi dərəcələrini nəzərdə tutan həvəsləndirici addımlar ataraq, investorlara infilyasiya zamanı itirdiklərini gələcək illərə (yəni 3-7 illərə) köçürmə üçün şərait yarada bilər. Bununlada, həmin illərdə aşağı dərəcəli vergi yükünü əvvəlki vergi dərəcəsi nəzərə alınmaqla gələcək dövrlərə (3-7 illər aralığı) ertələmək olar. Yuxarıda qeyd etdiyimiz təşviq mexanizmi ən çox ilk illərdə müəyyən səbəblərdən dolayı maliyə sıxıntısı olan investisiyaların cəlbediciliyini təmin etməkdən ötəri tətbiq olunur, bununla yanaşı, şirkətin istehsalat prosesindəki çətinliklərinin aradan qaldırılması, bazarlara giriş fəaliyyətlərinə dəstək verilməsi üçün istifadə olunur. İnvestisiya vergi kreditinin tətbiqi sayəsində investorların maraqlarının təmin edilməsi əsas götürülmüşdür. Bir növ vergi endirimini xatırladır. Mahiyyəti ondan ibarətdir ki, vergidən əvvəlki mənfəətin bir hissəsi gələcəkdə baş verə biləcək investisiya xərclərinin azaldılmasında tətbiq edilməsi üçün fond kimi saxlanılır. Bəzi Avropa və Asiya

---

[22] Güner Koç Aytekin (2019). Doğrudan Yabancı Yatırımlar DYY , Belirleyicileri ve Ekonomik Etkileri,səh 264

ölkələri investisiya artımlarının sürətləndirilməsi məqsədilə "Vergi tətilləri"ndən mütəmadi şəkildə istifadə edirlər. "Vergi tətilləri"[24] xarici investorların ölkəyə investisiya cəlbediciliyinin artırılması baxımından mühüm bir alətdir. Vergi tətilləri təcrübəsində ümumiyyətlə yeni yaradılmış şirkətlər müəyyən müddətdə bir çox vergilərin ödənilməsindən dövlət tərəfindən azad edilirlər. Bununla belə vergi tətillərinin yerli əhali üçün çox sərfəli olmadığı düşünülür, investisiya gəlirlərindən çox olduğu qənaətinə gələnlər də vardır. Gömrük tariflərinin də düzgün tətbiq edilməsi əsaslı müsbət dəyişikliklərə yol açır. Belə ki, şirkətlər fəaliyyətləri istiqamətində daha az xərc çəkərək, yüksək gəlirlilik əldə edirlər. Yəni aralıq mallar , xammal ehtiyyatının təmin edilməsi üçün gömrük rüsumlarının azaldılması. Əsas məqsədi istehsal sahəsinin mayə dəyərini azaltmaqdır.

Vergi güzəştləri tətbiq edərək[25], müsbət nəticələr əldə edən ölkələr əlverişsiz vergi siyasəti tətbiq edən ölkələrdən kapital və ixtisaslı işçi qüvvəsi idxal edə bilər, vergi rəqabətində lazımi təcrübələrə cavab verə bilməyən ölkələr isə kapital və işçi qüvvəsinin ixrac edən olurlar. Həvəsləndirici rəqabət nəticəsində ölkələr investorların cəlb edilməsi istiqamətində vergi güzəştləri və vergi azadolmaları tətbiq etməklə bir-birlərindən daha uyğun investisiya mühiti yaradırlar. Vergi siyasəti [26] çərçivəsində iqtisadi fəaliyyət növləri üzrə vergi yükünün səviyyəsini tənzimləməklə dövlət iqtisadi fəallığını həm artıra , həm də azalda , zəruri bazar şəraitini yarada , kölgə iqtisadiyyatını azalda, onun prioritetinin uğurlu modernləşməsi üçün lazım olan şərait yarada bilər. 2008-2020-ci illərdə Azərbaycanda vergi yükünün təhlil edilməsi nəticəsində belə qənaətə gəlinir ki, 2020-2021-ci illərdə mövcud olan pandemiya vəziyyətindən dolayı karantin dövründə tətbiq olunan məhdudiyyətlər pandemiya dönəmindən əvvəlki dövrlərdə vergi daxilolmalarının azalmasına ciddi şəkildə mənfi təsir etmişdir. Hər bir ölkənin investisiya cəlbediciliyinin və iqtisadi maraqlarının dayanıqlı inkişafını onun düzgün müəyyən edilmiş vergi sistemi təşkil edir. Ölkəmizə Xarici investisiya qoyuluşu edən investorların təminatçısı Azərbaycan dövlətidir. Bu Azərbaycan Respublikası Vergilər Məcəlləsinin müəyyən maddələrində təsbit olunmuş maddələrlə hüquqi və iqtisadi prinsiplərlə müəyyənləşdirilir. Eyni zamanda beynəlxalq müqavilələr və digər qanunvericilik sənədlərlə qorunur. Vergi sistemi iqtisadi inkişafın və investisiya yatırımlarının profisitini təzahür edir.

---

[24] UNCTAD (2013) United Nations Conference on Trade and Development , World Investment Report Database Page 34

[26] R. Goncharova (2021)ANALYSIS OF THE TAX BURDEN IN THE QUALITY ASSESSMENT SYSTEM OF THE STATE TAX POLICY. Page 65

Vergi yükünün artırılması nəticəsində pul vəsaitlərinin azalması, investisiya mühitinin durğunluq yaşamasına səbəb olur, davamlı perspektivlərin inkişafında maneə kimi göstərilir, lakin aşağı yüklü vergilər uzunmüddətli perspektivdə vergi daxilolmalarının çoxalmasına köməklik edir. İstehsal prosesinin inkişafı, iqtisadi rentabelliyin təmin edilməsinin, investisiyaya sərmayə qoyuluşlarının yeni mərhələyə çatdırılmasında istehlakın artırılmasında vergi siyasətindən düzgün istifadə etməklə əldə etmək mümkündür. İqtisadi artım dinamikasını həyata keçirmək üçün bütün dövlətlər qarşılarına məqsədlər qoyublar. Bu məqsədlərə çatmaqdan ötəri müəyyən fikir və nəzəriyyələr mövcuddur. Həmin nəzəriyyələrdən biri də "Təklif yönlü iqtisadiyyat yanaşması"dır. Yanaşmanın mahiyyətinə görə vergi dərəcələrinin artırılması ilə iqtisadi artım mənfi nəticələr yaradacaqdır. Vergi [27]dərəcələrinin azalması artıma müsbət təsir göstərəcək. 1970-ci illərin sonlarında Keynsçi tələbyönümlü siyasətinin yaratdığı həll edilməsi üçün Artur Laffer vergi faizlərinə endirim edilməsi təklifini irəli sürdü.




**Mənbə:**[https://iqtisadiportal. blogspot. com/2017/02/laffer-yrisi. html](https://iqtisadiportal.blogspot.com/2017/02/laffer-yrisi.html) saytından əldə edilmişdir.

Lafferin təklif etdiyi vergi endirimi tarixə "Laffer Əyrisi"kimi daxil olmuşdur. Laffer əyrisinə görə[28] vergi dərəcələrinin artması vergi gəlirlərini müəyyən qədə artıracaq, amma maksium vergi gəlir nöqtəsindən sonra dərəcə artımı gəlirləri artırmaq əvəzinə azalacaq. Vergi faiz

[27] Tax Revenue versus Tax Rates- Laffer Curve (https://corporatefinanceinstitute. com/resources/economics/laffer-curve/)
[28] https://www. tutor2u. net/economics/reference/laffer-curve

dərəcələrinin minuma endirilməsi ilə vergidən əldə ediləcək gəlirlər artacaq, Ümum Daxili Məhsulun (ÜDM) ümumi bazar istehsalının artmasına səbəb olacaqdır. Yuxarıda qeyd olunmuş qrafikə əsasən T*-optimal- vergi faizlərində olan artımlar vergidən gələn gəlirləri yüksəltəcək, lakin T* mərhələsi tamamlandıqdan sonra vergi faizlərində edilən artım yüksəlişləri vergi daxilolmalarını aşağı salacaqdır. Laffer əyrisində vergi dərəcələri 0% olarsa vergi daxilolmaları 0-a bərabər olacaqdır. Vergi dərəcələri qaldırılaraq 100% -ə çatacaqsa ayrı-ayrı fərdlərin əldə etdikləri gəlirlər dövlət tərəfindən vergi şəklində alınacaq, bununla da heç bir kəs işləməkdə maraqlı olmayacaq, çünki faiz göstəricilərinin yüksək olması mənfəətliyin əldə olunmasına açıq şəkildə təhdid sayılacaqdır. (R=0). Laffer əyrisi hər zaman üstünlüklərini qoruya bilmir, məsələn zəif cəhətləri də vardır, onlardan biri ölkə iqtisadiyyatında vergi daxilolmaları və vergi faiz dərəcələrinin optimal səviyyəsinin (M) müxtəlif olması ilə izah olunur. Vergi siyasətinin dövlət tərəfindən müəyyən edilmiş bir çox formaları vardır ki, onlarda tətbiq edilmə müddətinə, təsir dairəsinə və iqtisadi vəziyyətin inkişaf xüsusuyyətlərinin dəyişməsindən asıl olaraq şaxələndirmək olar:




Yuxarıdakı qrafikin kateqorik dəyişənlərinin izahını verək:

- **Vergi taktikası-** Hər hansısa sahibkarın, şirkətin, hüquqi şəxsin vergi yükünün qanuni yollarla azaldılmasını həyata keçirərək, verginin təyin etmiş olduğu üstunlüklərdən

məharətlə istifadəyə əsaslanır. Hər bir şirkətin vergi taktikası vardır. Bu taktikalardan qanuni şəkildə istifadə etmək lazımdır. Vergilər məcəlləsinə edilmiş dəyişikliklər yolu ilə müəyyən dövrdə qarşıda duran məsələnin həllinə yönəlmişdir

- **Vergi strategiyası-**Dövlətin vergi siyasətindəki davamlı, mütəmadi və uzunmüddətli strateji əlaqələrini müəyyənləşdirərək həlli istiqamətində əhəmiyyətli rol oynayır.
- **Daxili vergi siyasəti-** Hər bir ölkə öz ərazisi daxilində müstəqil siyasət yürüdür, qanunlar qəbul edir. Öz daxili məsələlərinin həllinə yönəlik

addımlar atır, iqtisadi maraqlarının təmin edilməsi üçün vergi sistemini tənzimləyir və ondan irəli gələn öhtəliklərin icrasına nəzarət edir.

- **Xarici vergi siyasəti-**Hər hansısa bir dövlətin digər bir dövlətlə vergi əlaqələrini nizama salan strategiyadır. Bu siyasət nəticəsində dövlətin idxal və ixracat prosesləri, investisiya yatırımları, iki tərəfli vergi güzəştləri və sairə məsəllər müəyyənləşdirilir.
- **Diskresion-**[29] Vergi siyasəti vergi dərəcələri və ya vergitutmanın strukturu ilə manipulyasiya etmək barədə hökümətin qərarları əsasında həyata keçirilir. O, iqtisadi tənəzzülün aradan qaldırılması, tarazlığın təmin edilməsini təşkil edir.
- **Qeyri-diskresion vergi siyasəti-**Dövlətin qəbul etdiyi qərarlardan asılı olmadan yerinə yetirilir. Bu mexanizm özünütənzimləmə rejimində "quraşdırılmış özütənzimləyicilər"in köməyi ilə həyata keçirilir.

Yuxarıda qeyd edilmiş məlumatların təhlilindən belə bir nəticəyə gələ bilərik ki, vergilər iqtisadiyyatın mərkəz qütbünü təşkil edir. Vergi siyasətinin düzgün tətbiq edilməsilə ölkəyə investisiya axınları cəlb edilərək iqtisadiyyatın dirçəlməsinə və şaxələnməsinə təkan verəcəkir. Vergitutmanın ən vacib məqsədlərindən biri xərcləri ödəmək üçün gəlirləri artırmaqdan ibarətdir. Vergitutma mexanizminin iqtisadiyyata təsirlərini bir neçə aspekdə izah edə bilərik.

**1. Verginin istehsal prosesinə təsiri**- istehsalın böyüməsinə təsir göstərə bilər, istehsalda 3 cür özünü göstərir.

- İşləmək, xərcləri azaltmaq, investisiya yatırımları etmək istəyinə olan təsirləri
- İşləmək, qənaət edərək, sərmayə qoyuluşu edənlərin istəyinə təsirləri

[29] https://www. academia. edu/38153958/%C4%B0qtisadiyyat%C4%B1n_d%C3%B6vl%C9%99t_t%C9%99nziml%C9%99nm%C9%99sind%C9%99_vergil%C9%99rin_rolu

- Resursların, təbii ehtiyatların  bərabər şəkildə bölüşdürülməsinə təsirləri

**2. İşləmək bacarıqlarına olan təsirlər**-Vergi sisteminin həyata keçirilməsi ilə vergi ödəyən şəxslərin gəlirlərinin azalmasına gətirib çıxaracaq. Gəlirlilik azaldıqca iş qabiliyyəti də azalacaqdır. Bu da sərmayə yatırımı edən investorlara mənfi təsir göstərəcəkdir. Lakin bu mikro sahibkarlar və ya dövriyyəsi zəif olan müəssisələrdə və sahibkarlarda baş verəcəkdir. Vergilərin hamısı iş fəaliyyətinə bütünlüklə mənfi təsir edir yanaşması təbii ki yanlışdır. Belə bir nümunə göstərək:bəzi zərərli məhsulların istehsalın azaltmaq üçün yüksək vergilər tətbiq olunur.

**3. İşləmək, xərcləri azaldaraq investisiya qoyuluşu etmək istəyinə təsirlər**-İşləmək, xərcləri azaltmaq  müəyyən qədər pul yükünün və  bir də verginin psixoloji təsirinin nəticəsidir. Vergiyə cəlb edilmiş hər bir şəxsin düşüncəsində belə bir hiss vardır ki, vergi sanki hər hansısa bir yükdür. Bu da işləyənlərin,  şirkət sahiblərinin psixoloji yorğunluq və neqativ enerjiyə köklənməsinə səbəb olur.

**4. Resursların və təbii ehtiyatların bölgüsü**-Resursıları[30]istənilən istiqamətlərə yönəltməklə vergi sisteminin istehsalın həcminə və ya ölçüsünə,  eləcə də iqtisadiyyatda istehsalın modelinə təsir göstərə bilər. Məsələn zərərli dərman vasitələrinin azalmasını təmin edəcəkdir.

5. Vergi sisteminin Gəlir bölgüsünə təsiri-Vergilər gəlirlərin bölüşdürülməsi baxımından həm müsbət, həm də mənfi cəhətdən xarekterizə oluna bilər. Kəskin şəkildə ( yüksək faiz dərəcələri) tətbiq olunan vergilər gəlir faizlərini azaldır, lakin reqressiv vergi sistemi gəlir bərabərliyini tarazlayır.

**6. Vergi siteminin digər təsirləri**-Tətbiq edilən vergilərin əsas məğzini işləmək, investisiya təşviqlərinin artırılmasına  təkan verirsə,  nəticə etibarı ilə

məşğulluq prosesinin inkişafına müsbət təsir göstərəcəkdir. Vergilərin tətbiq edilməsi ilə əldə edilən gəlirlər inkişaf layihələrinə, investisiya qoyuluşlarının artırılması məqsədi ilə dövlət tərəfindən investisiya mühitinin yaxşılaşdırılması üzrə layihələrə yatırılarsa iqtisadi inkişafın artımında yüksək nəaliyyətlər əldə oluna bilər.

[30] Ritika Muley (2013) Economic Effects of Taxation: Top 6 Effects Page 3

## 2. 2 Vergi siyasətinin investisiya cəlbediciliyinə təsirlərinin təhlili.

İnvestisiya cəlbediciliyinin artırılmasının əsasını vergi siyasəti təşkil edir. Bu faktoru əhatəli şəkildə araşdırmaq üçün verginin investisiya cəlbediciliyinə təsirini ölçmək və bu prosese təsir edə biləcək nüansları nəzərə almaq lazımdır. Məlumdur ki, vergi siyasəti ölkə iqtisadiyyatının ən gəlir gətirən sahəsidir. Vergi sistemindəki bu ardıcıllığı elə tənzimləmək lazımdır ki, nə iqtisadiyyatın gəlir mənbəyi olan vergilərin azalmasına gətirib çıxarmasın, nə də investisiya cəlbediciliyinə mənfi təsir göstərməsin. Bir mənfi cəhətin yaranması ilə həmin ölkəyə sərmayə yatıra biləcək xarici investorların fikirlərinin dəyişilməsinə səbəb ola bilər:

İlk olaraq dövlət elə bir vergi mexanizmi tətbiq etməlidir ki, vergi məbləği vergi qanunvericiliyinin tələblərinə uyğun olmaqla yanaşı, investisiya yatıracaq sərmayəçilərin maraqlarına kölgə salmasın. Vergi dərəcələrinin müəyyənləşdirilməsi təkcə dövlət xəzinəsini doldurmaqla investisiya cəlbedicilinə məfi təsir etməməlidir, paralel olaraq həm investisiya axınını təmin etmək, eyni zamanda iqtisadiyyatın inkişafı istiqamətində inkişafedici xüsusiyyətini itirməməlidir.

İkinci əsas faktor odur ki, vergi siyasəti dəqiq və istiqamətli olmalıdır. İnvestisiya edən sahibkarlar vergi siyasətinin sonradan nə dərəcədə dəyişəcəyi ehtimalını nəzərə alırlar. Bu baxımdan bir ölkənin vergi sistemində tez-tez dəyişikliklər olursa bu neqativ hal kimi qiymətləndirilir və investorların maraqlarına uyğun gəlmir.

İnvestisiya qoyuluşu edən investorların araşdırmalı olduğu əsas məsələlərdən biri də yatırım edəcəyi ölkələrin vergi siyasəti olmalıdır, çünki onların investisiya yatırımlarının təməlini həmin ölkənin vergi siyasəti təşkil edir. Vergi dərəcələrinin yüksəldilməsi investisiya cəlbediciliyinə bir çox aspektlərdə ciddi şəkildə mənfi təsir edə bilir:

1. Yüksəldilmiş vergi dərəcələri investisiya qoyuluşu etmiş investorların xalis mənfəətinin azaldılmasına səbəb olur, bununla da potensial investisiyalara yatırılmış məbləğin azalmasına gətirib çıxarır. Nəticə etibarı ilə yeni investisiya imkanları azalır, investisiya edilmiş sahələrin inkişafında durğunluq yaranır.

2. Vergi dərəcələrinin artırılması ilə investisiya qoyuluşu edən sahibkarların əldə edəcəkləri xalis mənfəətin faiz göstəriciləri ciddi mənada azalmağa doğru gedir, investorların cəlbediciliyi aşağı düşür, sərmayəçilər alternativ investisiya sahələri və ya digər uyğun variantları dəyərləndirməyi düşünürlər.

Bəzi hallarda vergilərin artırılması həmin ölkənin infrastrukturunun və sosioloji proqram və layihələrin inkişafına investisiya edilə bilər. Bununla da cəmiyyətin sosial-iqtisadi imkanlarının genişlənməsinə kömək edərək, investisiya cəlbediciliyinin inkişaf etdirilməsinə töhfə verəcəkdir. Hər bir ölkə iqtisadi inkişaf dinamikasını artırmaq istəyirsə mütləq şəkildə vergi siyasətini düzgün tənzimləyərək, investor cəlb edərək ticari əlaqələrini yüksək səviyyədə tutmalıdır. Vergi siyasətinin investisiya cəlbediciliyinə birbaşa təsiri vardır. Hər hansı bir ölkədə vergi faiz dərəcələri yüksək olarsa orada investisiya cəlbediciliyi azalacaq, investor başqa region və ölkələri qiymətləndirməli olacaqdır. İnvestisiya cəlbediciliyinin artırılmasının əsas vacib elementlərini vergi endirimləri, vergi təşviqləri kimi avantajlar təşviq edə bilər. Vergi güzəştləri özünü müxtəlif formalarda əks etdirə bilər. Məsələn vergi tətilləri, müəyyən xərc növləri üçün dövlət tərəfindən müəyyənləşdirilmiş çıxılmalar, azaldılmış idxal tarifləri, uyğun gömrük rüsumlarını qeyd etmək olar.

İnvestisiya cəlbediciliyinin artırılmasında vergi güzəştlərinin tətbiqi müstəsna əhəmiyyətə malikdir, lakin investisiya cəlbediciliyini təkcə vergi güzəştləri təyin etmir, bununla yanaşı digər aspekt və meyarlarda mühüm əhəmiyyət kəsb edir. İnvestisiya cəlbediciliyinin artırılmasına təsir edən qeyri-vergi amillərinə aşağıdakılar aiddir :

1. İlk olaraq “Siyasi sabitlik”. [31]Digər güzəştlərin tətbiq edilməsi nə qədər vacibdirsə siyasi sabitliyin olması da mütləq vacib hesab olunur. Sərmayədarlar yatırım edən zaman həmin ölkənin və regionun siyasi sabitliyinin qiymətləndirilməsini dəyərləndirilər.

2. Ardıcıl və sabit makroiqtisadi , fiskal siyasət. Dövlət tərəfindən düzgün aparılmış ardıcıl və sabit makroiqtisadi siyasət vacib məsələlərdən hesab olunur.

3. Adekvat fiziki, maliyyə, hüquqi və institusional infrastruktur

4. Effektiv, şəffaf və hesabatlı, operartiv dövlət idarəçiliyi

5. İxtisaslı işçi qüvvəsinin olması, əmək məcəlləsinin düzgün tənzimlənməsi

Azərbaycanda investisiya cəlbediciliyini qiymətləndirən zaman bir çox əsas faktorlara nəzər salmaq lazımdır. İlk olaraq isə Azərbayacan Respublikasının Vergi Qanunvericiliyi, idarəetmə mexanizminin səmərəli təşkil edilməsidir. Ölkəmizdə vergi dərəcələrinin sabit olması, investisiya mühitinin inkişaf etdirilməsi üçün vergi güzəştlərinin tətbiq edilməsi ilə xarici və daxili investorların biznes imkanlarının genişləndirilməsinə səbəb olmuşdur. Əvvəlki dövrlərdə

[31] Alexander Trepelkov ,Marcio Verdi (2018).DESIGN AND ASSESSMENT OF TAX INCENTIVES IN DEVELOPING COUNTRIES SELECTED ISSUES AND A COUNTRY EXPERIENCE .Page 8

ölkəmizdə vergilərin toplanmasında , mükafatlandırılması və qaytarılmasında ciddi çəkildə boşluqlar var idi. Dahi liderimiz H. Əliyevin uzaqgörən siyasəti və onun davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin digər sahələrdə olduğu kimi, vergi siyasətində də apardığı əsaslı islahatlar müsbət nəticələr vermişdir. Reformlar, vergi idarəetməsi, hesabatlılıq sisteminin yaradılması sağlam mühitin yaradılmasının əsasını təşkil edir. Məxsusən qeyd etmək lazımdır ki,  vergi sistemi və vergi ödənişləri prosesləri elektronlaşdırılmışdır. Ölkəmizdə sosial-iqtisadi inkişafın davamlılığının təmin edilməsi və dayanaqlı iqtisadiyyatın inkişaf etdirilməsi istiqamətində dövlət tərəfindən müəyyənləşdirilmiş sistemli işlər aparılır. ”Azərbaycan [32] Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” məhz həmin imkanlardan səmərəli istifadə yollarını və davamlılığın təmin edilməsi üçün strateji  hədəfləri  müəyyən edən proqram xarakteri daşıyır. Burada əks olunan hədəflərə çatmaq üçün Azərbaycan Respublikası Vergilər Məcəlləsində investiisyaların inkişaf etdirilməsi üçün əlverişli vergi şərtlərinin tətbiq edilməsi vacib hesab olunur. Ölkəmizdə sahibkarlığın inkişaf etdirilməsi, əlverişli investisiya mühiti yaratmaqla daxili və xarici investisiyaları cəlb etmək, qeyri-neft sektorunun inkişafına nail olmaq milli iqtisadiyyatın əsas xəttini təşkil edir. Müqayisə üçün bildirək ki, [33]1995-2000-ci illərdə iqtisadiyyata investisiya qoyuluşlarının ümumi həcmi 11 milyard dollar olduğu halda,  Vergi Məcəlləsi qəbul olunduqdan sonra, 2000-2014-cü illərdə bu göstərici 12 dəfə artaraq 132 milyard dollar olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin [34] 06. 12. 2016-cı il tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” nə əsasən,  investisiya axınını cəlb etmək üçün Azərbaycan əlverişli biznes mühitinin təmin edilməsi əsas prioritetlərdən biri kimi müəyyən edilmişdir. Son dövrlərdə aparılan islahatlar, dövlət tərəfindən biznes-investisiya mühitinin yaxşılaşdırılması , inkişaf etdirilməsi qorunması məqsədilə qəbul olunmuş qanun və layihələr mövcuddur. İnvestisiya qoyuluşu edən sahibkarlara dövlət tərəfindən müəyyən güzəştlər edilir. Azərbaycan Respublikası ərazisində investisiya fəaliyyəti ilə məşğul olan investorlara : hüquqi və fərdi sahibkarlara müvafiq yerli icra hakimiyyətinin müəyyənləşdirdiyi qaydalara uyğun olaraq “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş  güzəştlərin əldə edilməsini nəzərdə

[32] https://vergiler. az/news/taxes/19669. html  ( Azərbaycan Respublikası Vergilər Nazirliyi)
[33] Vergilər--- Sosial-İqtisadi Online Qəzet
[34] https://president. az/az/articles/view/26765

tutan sənəd- İnvestisiya təşviqi sənədidir. İnvestiya sənədinin verilməsinin aşağıdakı meyarları mövcuddur:

1. İnvestisiya qoyuluşu ediləcək iqtisadi fəaliyyətin sahəsi müəyyənləşdirilməli
2. Layihəyə yatırılacaq minium məbləğin həcmi müəyyənləşdirilməli
3. İnvestisiya layihəsinin gerçəkləşəcəyi inzibati ərazi vahidi müəyyənləşdirilməlidir.

İnvestisiya qoyuluşu edilən zaman iqtisadi fəaliyyət sahələrinə kənd təsərrüfatı sahələri, bağçılıq, bostançılıq, balıqçılıq sahəsinin inkişaf etdirilməsi, dağ-mədən sənayesinin inkişaf etdirilməsi, içki istehsalatı, qida sənayesi, tikinti, əzcaçılıq, kardon, kağız istehsalı, mebel, texniki sahələr, texnoloji sahələrin inkişaf etdirilməsi və digər sahələri misal göstərmək olar. Ölkəmizdə vergi güzəştləri fərdi sahibkarlara, yüksək texnologiyalı müəssisələrə , özəl investisiya fondlarına tətbiq olunur. **1997-ci ildə təsis edilmiş "Müəssisələrin maliyyələşməsi haqqında" qanun layihəsində əks olunmuş çoxlu vergi güzəştləri qeyd olunmuşdur.** Qanunda nəzərdə tutulan əsas məsələ əsası qoyulmuş yeni bir şirkətin maliyyələşməsinə köməklik etmək, genişlənməsi üçün lazım olan resursların təminatçısı kimi çıxış etməkdən ibarətdir. Bununla yanaşı, müəssisənin vergi yükünün müəyyən müddətlik də olsa bir neçə il üzrə ləğv etməsi üçün şərait yaradır. Yüksək texnologiyalı müəssisələrə dövlət tərəfindən təklif olunan əsas güzəştlərdən biri də "Yüksək Texnologiyalı Sənaye Mərkəzi" proqramıdır. Qeyd olunan proqram sayəsində ölkəmizdə fəaliyyət göstərən yüksək texnologiyalı müəssisələrə vergi güzəştləri və digər dəstəklərin verilməsindən ibarətdir. Azərbaycan Respublikasının Vergilər Məcəlləsində investisiya təşviqi sənədinə sahib olan investorlara dövlət tərəfindən müəyyənləşdirilmiş vergi güzəştləri vardır. "Gömrük tarifi haqqında" qanunda nəzərdə tutulan vergi güzəştlərinə nəzər salaq.

Azərbaycan Respublikası Vergi Məcəlləsində[35] müəyyənləşdirilmiş güzəştlər:

- İnvestisiya təşviqi sənədini alan hüquqi şəxs və fərdi sahibkarlar texniki ve digər texnoloji avadanlıqların idxalı prosesini və müəssisə üçün lazimi avadanlıqların ölkəyə gətirilməsi üçün 7 il müddətində gömrük rüsumundan azaddır.
- İnvestisiya təşviqi sənədini almış investor həmin tarixdən əldə etdiyi gəlirin 50 %- i 7 il müddətində gəlir vergisindən azaddır.

[35] banco. az/az/news/investisiya-tesviqi-senedi-alan-sahibkara-hansi-vergi-guzestleri-edilir-numune

- Dövlətin müəyyən etdiyi təşviq sənədini alan hüquqi şəxslər və fərdi sahibkarlar həmin tarixdən texnika və texniki avadanlıqların , qurğuların idxalı zamanı 7 il müddətində Əlavə Dəyər Vergisindən (ƏDV) azaddırlar.
- Dövlətin təsdiq etdiyi normativ sənədin təsdiq edildiyi gündən 7 il müddətinə hüquqi şəxs və fərdi sahibkarlar əmlak vergisi ödəməkdən azad edilirlər.
- İnvestisiya təşviqi sənədinə sahib olan hüquqi şəxs və fərdi sahibkarlar müvafiq sənədə sahib olduqları tarixdən mülkiyyətində və ya istifadəsində olan torpaq sahələrinə görə 7 il müddətində torpaq vergisindən azad edilmişlər

İnvestisiya cəlbediciliyinin artırılmasında Azərbaycan dövləti yeni yaradılacaq müəssisələr və investorlar üçün böyük imkanlar yaradır, bunu xarici xəbər saytları və bu sahənin mütəxəssisləri də qeyd edir. Ölkəmizə sərmayə yatırımı edəcək investorlara aşağıdakı üstünlüklər təklif olunur :

- Dövlət məcburiyyətlərinin icra edilməsi, qeydiyyat proseslərinin nisbətən sadələşdirilməsi
- Qısa müddətdə və ya orta müddətlik işçilərin əməkhaqqı vergisindən azad edilməsi , faiz dərəcəsinin aşağı salınması
- Ölkəmizə investisiya edən sərmayəçilərin maliyyə təşkilatlarından kreditlər və sığorta haqlarının əldə edilməsinə şərait yaratmaq
- Mənfəəti təmin edən vergilərin sığortalanmasını həyata keçirmək
- Müəyyən müddətlik məsələn 10 ildən çox müddətdə gəlir və əmlak vergisindən azad edilməsini təmin etmək
- Azad İqtisadi Zonalar yaradılaraq həmin ərazilərdə vergi güzəştlərinin tətbiqi, sığorta ödənişlərindən azad edilə bilərlər.
- Gömrük vergilərinin azaldılması və ya azad edilməsi
- Əmlak və torpaq vergisinin faiz göstəricilərinin aşağı salınması

Əlverişli şərtlər daxilində ölkəmizdə biznes sferasının inkişaf etdirilməsi üçün Azərbaycan Respublikasının Vergilər Məcəlləsində müxtəlif formatlı və ümumi məzmunlu 129 güzəşt və azadolmalar yaradılmışdır. Vergi güzəştlərinin ən çox tətbiq edildiyi sahələr sənaye və texnologiyalar parkıdır. Onlardan biri də Qaradağ Sənaye Parkında gəmiqayırma fəaliyyəti ilə məşğul olan şirkətlərin fəaliyyət sferasının genişləndirilməsi və xidmətlərin keyfiyyətli təşkil olunması üçün 01. 05. 2016- cı il tarixində 5 il müddətində Əlavə Dəyər Vergisindən (ƏDV) azad olunmuşdur. Sumqayıt Kimya Saneye Parkı , Mingəçevir Sənaye Parkı, Ağdam Sənaye

Parkı və sairə misal göstərmək olar. Qeyd olunan sənaye parklarının əsas məqsədi Azərbaycan iqtisadiyyatının güclənməsini sürətləndirmək, istehsal sahələrini artırmaq, region bazarlarında və Avropa bazarlarında əsas paya sahib olmaq, işsiz əhalinin işlə təmin edilməsinə dəstək olmaq, ölkədaxili lazım olan resursların əsas hissəsini qarşılamaq və ehtiyac yaranarsa xaricə idxal etmək.

Vergilər Məcəlləsinə [36] dəyişikliklər layihəsi çərçivəsində sosial xarakterli dəyişikliklər sırasında hibrid avtomobillərə verilən güzəştlərin müddətinin artırılması nəzərdə tutulur. Qeyd olunanlara əsasən 01. 01. 2022- ci il tarixindən 2500 kub santimetrədək mühərrik həcmi olan istehsal müddəti 3 ildən çox olmayan hibrid avtomobillərin Azərbaycana gətirilməsi və satılması zamanı 3 il müddətində ƏDV-dən azad edilmişdir. Aparılan təhlillərə əsasən demək olar ki qeyd olunan güzəşt müddəti daha 4 il müddətində uzadılması da gözlənilir. Dəyişiklər sırasına əlavə edilən maddələrə ermənilər tərəfindən işğal edilən və cəsur və şücaətli Azərbaycan igidləri tərəfindən geri qaytarılan ərazilərimizdə fəaliyyət göstərən ərazinin rezidentlərinə 10 il müddətində mənfəət, əmlak. torpaq, sadələşdirilmiş vergilər nəzərdə tutulmuşdur. Kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi məqsədi ilə dövlət tərəfindən ciddi addımlar atılır. Belə ki, kənd təsərrüfatı məhsulları istehsal edən sahibkarlar torpaq vergisindən başqa digər vergitutmalarından azaddırlar. İcra tarixi 2001- ci il tarixindən başlamaqla 5 illik dövrü əhatə edən güzəştlər paketi indiyə qədər müddəti 4 dəfə artırılmışdır. Qanunvericiliyin 102. 1. 11 maddəsinə əsasən [37]bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirlər üzrə vergi güzəştlərindən istifadə etmək hüququna malik olan şəxslərdən aşağıdakı sənədlər tələb edilir:

- Kənd təsərrüfatı məhsulları istehsal edən təsərrüfat subyektləri ilə əlaqədar təsdiqedici sənədlər
- Kənd təsərrüfatı sahələrində istehsal obyektlərinin mövcudluğu barədə təsdiqedici sənədlər
- Mülkiyyətində və yaxud istifadəsində olan kənd təsərrüfatı təyinatlı torpaqlar barəsində sənədlər
- Qeyd olunan torpaq və obyektlərdə istehsal prosesinin həyata keçirilməsini təsdiq edən sənədlər.

[36] https://ikisahil. az/post/378351-gelen-ilin-vergi-guzeshtleri-ondan-kimler-ve-hansi-saheler-yararlana-bilecekler
[37] http://www. taxes. gov. az/

- Kənd təsərrüfatı ilə məşğul olan sahibkarlar ƏDV vergisindən 10 il müddətində azaddırlar.

Yuxarıda qeyd etdiyimiz əsas maddələr kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsində mühüm əhəmiyyət kəsb edir. Kənd təsərrüfatı sahələrinin inkişafı nəticəsinə həm daxili tələbat ödənilir, həm də xaricə məhsullar tədarük edilir. Sahibkarlar mənfəət əldə etdikcə kənd təsərrüfatına investisiya yatırımlarının məbləğinin artırılmasında maraqlı olurlar.

Ümumilli liderimiz Heydər Əliyevin [38]2002-ci ilin ortalarında yerli və xarici iş adamları ilə keçirdiyi görüşlərdən sonra

- "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramının" ( 2002-2005-ci illər) təsdiq edilməsi haqqında
- "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi" sahəsində əlavə tədbirlər haqqında
- "Sahibkarlığın inkişafına mane olar müdaxilələrin qarşısının alınması haqqında"imzaladığı tarixi fərmanlarla dövlət vergi orqanlarının qarşısında bir sıra əsas öhtəliklər qoymuşdur.

Ölkəmizdəki sağlam investisiya mühitinin formalaşmasının əsas təkanverici mərhələsi dahi öndərimiz H. Əliyevin və onun davamçısı İlham Əliyevin apardığı uzaqgörən siyasət nəticəsindədir. Qeyd olunan qanun layihələri, fərmanlar və dövlətin təşkil etdiyi layihələr nəticəsində Azərbaycana investisiya edəcək şirkətlər, investorların sayı artmış bu da iqtisadiyyatın gücləndirilməsi prosesinin əsas hissəsini təşkil edir. Son dövrlərdə Azərbaycan Respublikasının Vergilər Məcəlləsinə edilmiş müsbət dəyişikliklər, təşkil olunmuş dövlət proqramları, seminarlar, vergi dərəcələrinin azaldılması, vergi saylarının azaldılması ölkəmizə investisiya etmək istəyən xarici və daxili investorların marağına səbəb olmuş, investisiya axınlarının güclənməsinə gətirib çıxarmışdır. Son dövrlərdə aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, 2021-ci ildən bu günə qədər ən çox investisiya qoyuluşu edən ölkələr aşağıdakılardır :

Azərbaycan Respublikası Mərkəzi Bankının açıqlamasına görə [39] Azərbaycan iqtisadiyyatına 2021-ci il üzrə ən çox investisiya qoyuluşu edən TOP 10 -luğa Birləşmiş Krallıq ($512. 865 min), Türkiyə ($211. 953 min), Malayziya ($135. 488 min), Amerika Birləşmiş

[38]Qarayev İmran Əliyar (2018)Azərbaycan Respublikasının vergi sistemi və siyasəti. səh 18
[39] https://fed. az/az/maliyye/bu-il-azerbaycan-iqtisadiyyatina-en-cox-yatirim-eden-olkeler-aciqlandi-top10-108648

Ştatları ($100. 627 min), Kipr ($91. 760 min), İran İslam Respublikası ($87. 723 min), Yaponiya ($79. 407 min), Norveç ($44. 793min), Gürcüstan ($35. 710 min), Birləşmiş Ərəb Əmirlikləri ($18. 426 min).




| | Cəmi | | Birləşmiş Krallıq | Türkiyə | Malayziya | Amerika Birləşmiş Ştatları | Kipr | İran İslam Respublikası | Yaponiya | Norveç | Gürcüstan | Birləşmiş Ərəb Əmirlikləri | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Xüsusi Çəkisi % | 100 | | 36.6 | 15.1 | 9.7 | 7.2 | 6.6 | 6.2 | 5.7 | 3.2 | 2.5 | 1.3 | |
| Məbləğ Min $ | 0 | | 512.865 | 211.953 | 135.488 | 100.627 | 91.76 | 87.273 | 79.407 | 44.793 | 35.71 | 18.426 | |
| Xüsusi Çəkisi % | 100 | | 35 | 11.4 | 5.7 | 9.9 | 3.9 | 3.7 | 7.4 | 4.2 | 0.5 | 1.1 | |
| Məbləğ Min $ | 0 | | 415.917 | 135.7 | 68.046 | 118.115 | 46.674 | 43.739 | 88.063 | 49727 | 6.286 | 13142 | |

**Diaqram -7** Mənbə : https://www.economy.gov.az/az

# Fəsil III: Azərbaycanda investisiya cəlbediciliyinə vergi siyasətinin təsirinin ekonometrik analizi.

## 3. 1 Ədəbiyyat xülasəsi.

1. İnvestisiya cəlbediciliyinin artırılmasında vergi siyasətinin təsirləri müxtəlif tədqiqatçılar tərəfindən fərqli-fərqli dövrlərdə ayrı-ayrı ölkələrdə mütəxəssis və araşdırmaçılar tərəfindən təhlil edilmişdir. Qeyd olunan tədqiqatlardan bəziləri investisiya cəlbediciliyinin xüsusiyyətlərini araşdırmış, bəziləri investisiya cəlbediciliyi üzərində vergi siyasətinin mənfi faktorlarını izah edərək gələcəkdə vergi siyasətinə hansı dəyişikliklərin edilməsi ilə investisiya mühitinin inkişaf dinamikasını araşdırmışdır. Tədqiqatçıların bir qismi investisiya cəDickey, D. A. and Fuller W. A. (1981), Likelihood Ratio Statistics for Autoregressive Time Series with a Unit Root, *Econometrica,* 49(4), 1057-1072.
2. Stock J. H. , Watson M. (1993), A simple estimator of cointegrating vectors in higher order integrated systems. *Econometrica,* 61, 783-820.
3. Narayan P. K. (2004), An econometric model of tourism demand and a computable general equilibrium analysis of the impact of tourism: the case of the Fiji Islands / *PhD thesis, Department of Economics,* Monash University, Melbourne, Australia,
4. Stock J. H. , Watson M. W. *Introduction to econometrics*. Boston: Addison Wesley, 2003.
5. Phillips P. C. B. , HansenB. E. Statistical inference in instrumental variables regression with I (1) Processes. *Review of Economics Studies*, 57, 99-125.

Park J. Y. Canonical cointegrating regressions , *Econometrica,* 60, 119-143lbediciliyinin aşağı olduğu ölkələrdə vergi güzəştlərinin olmaması, vergi qanunvericiliyinin tez-tez dəyişdirilməsi, vergi faizlərinin ağır olmasını qeyd edirlər. Digər yanaşma ondan ibarətdir ki , investisiya mühitinin formalaşması üçün regional sabitliyin olmasının vacibliyi diqqətə çatdırılmışdır. Van PARYS, S. , JAMES , S (2010) "The effectiveness of tax incentives in attracting investment : panel data evidence from the CFA Franc zone", International Tax and Public Finance , UNCTAD (2000), "Tax incentives and foreign direct investment, a global survey", ASIT advisory studies, KLEMM. A. , Van parys, S. (2002) "Empiricial Evidence on the Effects of Tax Incentives", International Tax and Public Finance. A Study in the Theory of Investment By TRYGVE HAAVELMO (1960), Theories of Investment: A Theoretical Review with Empirical Applications Johan E Eklund (2013), The Tax Benefits of Investing in Opportunity Zones (2018) və digər bu kimi tədqiqatçıların araşdırmaları nəticəsində investisiya cəlbediciliyinin artırılmasının vergi güzəştləri sayəsində mümkünlüyünü qeyd edilmişdir. Bununla yanaşı vergi qanunvericiliyində tez-tez baş verən dəyişikliklərin investisiya mühitinə mənfi təsirləri olduğunu bildirmişlər. Nəticə olaraq vergi güzəştləri investisiya axınlarının sürətlənməsinə səbəb olur.

Yuxarıda adlarını qeyd olunan müəlliflərdən başqa P. Q. Rzayev(2013), Rashad Akhmedov (2021), Ertan Sevinç (2022), Muhammed Kerem Şenol (2022), Bekir Polat (2018), Yasemin Güzel (2018), S. Z. İsayev (2011), Natiq Sabiroğlu ( 2006) və digərləri investisiya cəlbediciliyinin artırılma yollarının , perispektivliyinin, müasir dövrdə investisiya yatırımları üçün hansı əngəllərin olduğunu təhlil etmiş və bu problemlərin aradan qaldırılması, yeni investisiya kanallarının yaradılması, inkişaf dinamikasının artırılması istiqamətində araşdırmalar aparmışlar. Tədqiqat zamanı Emprik təhlil metodundan istifadə edərək, investisiya cəlbediciliyinin artırılmasında daha dəqiq məlumatların əldə edilməsinə töhfə vermişlər. Aparılan araşdırmalar zamanı investisiya yatırımlarının artırılması hər bir dövlətin iqtisadi inkişafının üçün müsbət nəticələrə səbəb olur , lakin vergilərin isə mənfi təsir yaratması ortaya çıxmışdır. İnvestisiya yatırımlarının şaxələnərək böyüməsi iqtisadi inkişafı təmin etmək üçün əsas zəmin yaratmışdır. Bu şaxələnmə prosesi inkişaf etməkdə olan ölkələrdə effektiv bir mexanizmdir. Prosesin tamlığını qorumaq üçün hər bir ölkə vergi sistemini diqqətlə analiz edib, təhlil etməlidir ki, investisiya təşviqinə yarada biləcək maneələr aradan qaldırılsın. Müasir dövrümüzdə maliyyə axınlarının artırılmasında investisiya ən önəmli faktor sayılır. Buna görə də vergi sistemindəki boşluqların aradan qaldırılması vacib məsələlərdəndir. Azərbaycan Respublikasında investisiya yatırımlarının maliyyələşdirilməsi proseslərinin inkişaf etdirilməsi və siyasi-iqtisadi sabitliyin təmin olunması investisiya yatırımlarının davamlı inkişafına təkan vermişdir. Ölkədə[40] investisiya yatırımlarının maliyyələşdirilməsində ayrı-ayrı institusional qurumların rolunun təhlili göstərir ki, bu əsasən onların investisiya imkanlarına müvafiq olmuşdur. Ölkəmizdə [41] investisiya yatırımlarının əsas kapital üçün həcmi 2000-ci il ilə müqayisədə 2010- cu ildə 6, 7 dəfə, 2014-cü ildə isə 18, 2 dəfə artım olunduğu müşahidə olunmuş, əsas kapitala yönəldilmiş investisiya qoyuluşlarının maliyyələşdirilməsi büdcə vəsaitlərinin payı 2000-ci ildə 2, 3 faizdən 2010-cu ildə 32, 9 faizə, 2014-cü ildə isə 36, 6 faizə yüksəldilmişdir. Tereshina N. P. , Podsorin V. A (2020) apardıqları təhlil və araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, investisiya yatırımları sayəsində Rusiyanın nəqliyyat infrastrukturunun böyüməsi və bu sahəyə olan yatırımların çoxalmasına səbəb olmuş , yük daşımalarında tranzit nəqliyyat yolları kimi istifadə edilməsində əlverişli mövqeyə sahib olmuşdur.

Ölkəmizdə isə investisiya cəlbediciliyinin artırılması və vergi strategiyasının düzgün tətbiq edilməsi istiqamətində bir çox mütəxəssis araşdırmaları mövcuddur. Həmin

[40] Ziyad Səmədzadə (2015).Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu ,səh 115
[41] https://tedris. taxes. gov. az/assets/upload/files/Konfrans-2015-total. pdf

tədqiqatçılara P. Q. Rzayev (2013), E. B. Məmmədov (2019), İ. A. Kərimli , E. M. Hacızadə , M. İ. Bərxudarov (2017), Ə. V. Gözəlov (2008) və digər tədqiqatçıların yazmış olduqları elmi əsərləri araşdırdıqda məlum olur ki, investisiya cəlbediciliyinin artırılmasında bəzi problemlər vardır. Bu problemlərin həlli istiqamətində mühüm addımlar atılmışdır. Başlıca olaraq vergi siyasətinin düzgün tənzimlənməsi və vergi yükünün azaldılması ilə bağlı tədbirlər görülmüşdür. Ş. V. Bağırovanın apardığı elmi təhlillər və araşdırmalar nəticəsində "Xarici investisiyaların inkişafında vergi sisteminin rolu" haqqında əsaslı mülahizələr irəli sürülmüşdür. Qeyd edilmişdir ki , son zamanlarda vergi qanunvericiliyində aparılmış islahatlar aşağıda əks olunmuş məqsədlərə nail olmaq üçün hədəfləndirilmişdir :

- Vergi faiz dərəcələrinin azaldılması
- Vergi saylarının azaldılması
- Vergi idarəçiliyində optimalizasiya proseslərinin aparılması
- İnvestisiya mühitinin yaxşılaşdırılması üçün əlverişli imkanlarla təmin edilməsi
- Ucqar və dağlıq ərazilərdə investisiya yatırımlarının sürətləndirilməsinə dövlət dəstəyinin göstərilməsi
- Vergi ödəyicilərinin hüquqlarının dövlət tərəfindən qorunması

Yuxarıda əks olunan maddələrin icrası nəticəsində investisiya yatırımlarının inkişaf etdirilməsini təmin etmək mümkündür. İnvestisiya mühitinin inkişaf etdirilməsinin əsas göstərici vergi siyasətinin düzgün tənzimlənməsidir.

İqtisad üzrə fəlsəfə doktoru Elnurə Məmmədovanın tədqiqatları nəticəsində Müasir dövrdə investisiya mühitinin formalaşması prosesləri və mexanizmləri təhlil edilmişdir :

- Fizikal mexanizmlər yolu ilə investisiya cəlbediciliyinin təmin edilməsi
- Makroiqtisadi proseslərin inkişafı və sürətləndirilməsi
- Texnoloji və innovativ proseslərin inkişafının ön plana çıxarılması
- İnvestisiya cəlbediciliyi baxımından hüquqi -iqtisadi imkanların formalaşdırılması

Elmira Məmmədovanın apardığı tədqiqatin əsasında yuxarıdakı əsas maddələr dayanır ki , onların tətbiqi sayəsində investisiya cəlbediciliyinin artırılması mümkündür.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin apardığı dayanaqlı və inkişaf siyasəti nəticəsində ölkənin investisiya mühitində əhəmiyyətli şəkildə irəlləyişlər baş vermişdir. Belə ki ölkəmiz hal-hazırda investisiya cəlbediciliyi baxımından ilk sıralardadır. Özəl sektorun 2008-ci il üzrə ÜDM- ə görə faizi 84, 5-dir. Neft sektoru üzrə 7, qeyri-neft sektoru üzrə isə

15, 7 faiz artımı olmuşdur. Bu da əhəmiyyətli dərəcədə müsbət nəticədir. Qeyd olunanlarla yanaşı , investisiya fəaliyyətinin inkişaf etdirilməsi üçün ölkəmizin , dövlət və özəl təşkilatların bir sıra situmullaşdırıcı mexanizmlər irəli sürmüşlər. Ardıcıl islahatlar nəticəsində qeyri- neft sənayesinin əsas hədəf sahələrinə çevrilən avadanlıq istehsalı , maşınqayırma sənayesi , cihazqayırma , gəmiqayırma sənayesi , tikinti materiallarının istehsalı , istehsal və emal sənayelərinin genişlənməsi ilə yeni-yeni zavod və fabriklərin fəaliyyətə başlaması , sənaye parklarının yaradılması ilə orada fəaliyyət göstərən müəssisələrin vergi faiz dərəcələrinin aşağı salınması ilə və dövlət tərəfindən digər dəstəklərin göstərilməsi ilə istehsal həcminin artırılmasına təkan vermişdir.

## 3. 2 Ekonometrik metodologiya və verilənlər bazası.

Bu tətqiqatda vergi gəlirlərinin investisiya yatırımları üzərindəki təsirləri Tam Modifikasiya Olunmuş Ən Kiçik Kvadratlar Metodu ( FMOLS ) yanaşmasının tətbiqi vasitəsilə təhlil edilərək qiymətləndirilmişdir. Bundan ötəri birinci dəyişənlərin stasionarlığı Genişləndirilmiş Dikey-Fuller (ADF) (1) vahid kök testi vasitəsilə yoxlanılmış , bundan sonra FMOLS metodu vasitəsilə tətbiq olunan model əsasında dəyişənlər arasında uzunmüddətli dövr əlaqəsinin varlığı Engle – Granger və Parkın dəyişən əlavə etmə (6) kointeqrasiya yanaşmasının tətbiqi ilətest edilmiş , bundan sonra nəticə olaraq dəyişənlər arasında əlaqənin ekonometrik modeli qurulmuşdur.

Tam Modifikasiya Olunmuş Ən Kiçik Kvadratlar Metodu (FMOLS). Alternativ metodlardan biri də FMOLS metodur. Müstəqil olan dəyişənlərin uzunmüddətli dövr ərzində təsirini qiymətləndirmək üçün bu metoddan geniş istifadə olunur. Dəyişənlərin arasında uzun bir dövrü əhatə edən əlaqələrin mövcudluğunu araşdıraraq təhlil etmək üçün fərli müasir ekonometrik üsulların tətbiqindən geniş istifadə edilir. 1990 – cı ildə Phillips və Hansenin təklifinə əsasən qiymətləndirmə metodu kointeqrasiya tənliyi vasitəsilə stoxastik proses

nümayiş etdirən reqressorlardakı tərəddüdlər arasında aşlılıq nəticəsində yaranan problemlərin həlli üçün semi-parametrik korreksiya tətbiq olunur. Bununla da Tam modifikasiya Olunmuş Ən Kiçik Kvadratlar Metodu (FMOLS) [42] sayəsində əldə olunan qiymətləndirmə mexanizmlərinin nəticəsi meyilsizdir və tam normal asimptotik paylanmaya malik olduğuna görə Xi – kvadrat statistik qiymətlərindən istifadə etməklə standart Vald testinin tətbiqinə şərait yaradır. FMOLS metodunun tətbiqi nəticəsində kiçik nümunələr ölçüsü üçün etibarlı təxminlərin yaradılmasını təmin edir. Emprik tədqiqatlarda bu metodeun tətbiq edilməsi çox sadədir.

**Dinamik Ən Kiçik Kvadratlar Metodu ( DOLS)**. 1993-cü ildə Stock və Watson tərəfindən irəli sürülən təkliflərdən biri də assimptotik səmərəli qiymətləndirmə metodudur. Bu metod sayəsində endogenlik problemlərini həll edən qiymətləndirmə metodologiyası tövsiyyə olunur. Uzunmüddətli dövr ərzində dəyişənlər arasında eynizamanlılıq meyilliyini korreksiya edilmiş tarazlığın dəyərləndirilməsi zamanı tətbiq olunur. Daha ətraflı və dəqiq nəticəni müəyyənləşdirmək üçün bu tədqiqatda FMOLS ilə yanaşı DOLS (2) və Kanonik Kointeqrasiya Reqressiyası ( CCR ) yanaşmalarını tətbiq etməklə qiymətləndirmə prosesi aparılacaq. Bu prosesin aparılma səbəbi DOLS kointeqrasiya yanaşması vasitəsilə müəyyən edilmiş nəticələrin bu metodun tətbiqi ilə yenidən nəzərdən keçirilməsi və daha dəqiq və düzgün təhlilın aparılmasına şərait yaradır. Bu mərhələ texniki məsələ olduğuna görə əvvəldə göstərildiyi kimi kointeqrasiya metodlarının və Parkın dəyişən əlavə etmə kointeqrasiya testinin riyazi hesablanma qaydası təqdim olunmayacaq.

OLS qiymətləndiricisi reqreaaorlar ekzogen olan zaman və mükəmməl kolinearlıq müəyyənləşdirildikdə birinci səviyyəli sabit effektlər üçün uyğun , reqreaaorların sonlu dördüncü anları müəyyən edildikdə qalıqların dispersiya qiymətləndirilməsi üçün uyğun hesab olunur.

DOLS metodunun bir çox üstünlükləri vardır ki, əsas üstünlüyü kointeqrasiya sistemində qarşılıqlı təsiri və ya bununla yanaşı , endogenlik problemini aradan qaldıran qiymətləndirmə metodologiyası tövsiyyə olunur. Uzun müddətli dövr üçün dəyişənlər arasında potensial eynizamanlıq meyolloyi üçün korreksiya olunmuş tarazlığın qiymətləndirilməsində tətbiq edilir. Bundan başqa digər alternativ metodlardan fərqli olaraq kiçik ölçüyə sahib olan nümunə qruplar üçün daha effektiv təsirə malikdir.

---

[42] Xətai Allyev (2022)."EViews" Tətbiqli Ekonometrika , səh 270

Kanonik Kointeqrasiya Reqressiyası (CCR) : 1992-ci ildə Park tərəfindən təklif kimi irəli sürülən Kanonik Kointeqrasiya Reqressiyası (CCR) Tam Modifikasiya Olunmuş Ən Kiçik Kvadratlar Metoduna (FMOLS) çox yaxındır. Bununla yanaşı, [43] CCR stasionarlığa transformasiya edilmiş verilənlərdən istifadə edərək kointeqrasiya tənliyi və stoxastik reqressorlarda tərəddüdlər arasındakı uzunmüddətli zaman asılılığını aradan götürür :metodun riyazi hesablanma qaydası Park tərəfindən tam və dolğun şəkildə izah olunmuşdur. Yuxarıda qeyd olunan digər metodlar kimi CCR metodu da tətbiq edilən zaman dəyişənlər arasında kointeqrasiya əlaqəsinin yoxlanılması mütləq vacib şərtlərdəndir.

1979- cu ildə ABŞ alimləri olan David Dikey və Wayne Fuller adına Dickey -Fuller testi vahid kök , statistik nəticələrə yönəlik ola biləcək bir xüsusiyyətin autoregressive modeldə mövcud olub olmadığını müəyyənləşdirən zaman tətbiq edilir. Orijinal Dickey – Fuller testinin olduğu kimi genişlənmiş Dickey – Fuller testi də mövcuddur. Bu testlər arasında əsas fərqləndirici xüsusiyyət ADF ona nəzərən daha böyük və daha mürəkkəb hesab olunur. Dickey -Fuller statistikası mənfi bir nöqtədir və daha çox mənfi olduğu üçün bir vahid kök olduğuna dair fərziyyənin rədd edilməsi daha çox güclüdür.

Bu tədqiqatda istifadə ediləcəı məlumatlar 1995-2021- ci illəri əhatə edən aşağıdakı göstəricilərdir.

- Vergi gəlirləri (T) – milyon manatla , büdcəyə daxil olan vergilər.
- İnvestisiyalar (İNV) -milyon manatla ölçülmüş və əsas kapitala qoyulan vəsait.

Tədqiqat təhlil hissəsindəki bütün məlumatlar Dünya Bankı və Azərbaycan Dövlət Statistika Komitəsinin əks olunan rəsmi göstəricilərdən əldə edilmişdir.

[43] Xətai Aliev (2022) ."EViews" Tətbiqli Ekonometrika səh 272

## 3. 3 Ekonometrik qiymətləndirmənin şərhi.

### EMPRİK METODUN TƏHLİL NƏTİCƏLƏRİ :

Emprik təhlil metodunun qiymətləndirilmə prosesinin aparılmasından əvvəl vahid kök testləri vasitəsilə dəyişənlərin stasionarlığının yoxlanılması mütləq vacib hesab olunan məsələlərdən sayılır. Bundan ötəri dəyişənlərin stasionarlığını yoxlamaq üçün **Dikey-Fuller ( ADF)** test üsulu tətbiq edilmişdir. Tədqiqat zamanı əldə olunmuş nəticələr Cədvəl 1- də edilmişdir. Test nəticələrindən də göründüyü kimi bütün göstəricilər birinci tərtib fərqdə stasionardır , yəni I ( 1)-dir.

**Cədvəl 1:** Genişləndirilmiş Dikey-Fuller (ADF) vahid kök testlərinin nəticələri

| **Səviyyədə** | | | | | |
|---|---|---|---|---|---|
| | t-Statistikası | p-qiyməti | Gecikmə uzunluğu * | Testin sərhəd qiymətləri ** | |
| T | 0. 043477 | 0. 9545 | 0 | 1% | -3. 711457 |
| İNV | -0. 595875 | 0. 8552 | 0 | 5% | -2. 981038 |
| | | | | 10% | -2. 629906 |
| **1-ci tərtib fərqdən** | | | | | |
| | t-Statistikası | p-qiyməti | Gecikmə uzunluğu * | Testin sərhəd qiymətləri ** | |
| ΔT | 4. 865692 | 0. 0007 | 0 | 1% | -3. 724070 |
| ΔİNV | -3. 143890 | 0. 0360 | 0 | 5% | -2. 986225 |
| | | | | 10% | -2. 632604 |

(*) Şvars meyarı əsasında seçilmişdir.

(**) MacKinnonun (1996) tək tərəfli testi üçün p-qiymətləri.

Daha sonra dəyişənlər arasında kointeqrasiya əlaqəsinin varlığını FMOLS kointaqrasiya yanaşması ilə qurulan modelə əsasən yoxlamışıq. Bu məqsədlə Engle-Granger kointeqrasiya testi istifadə olunmuşdur və test nəticələri cədvəl 2-də verilmişdir. Engle-Granger tau-statistic nəticələrinə görə *p-qiyməti* 10 %-dən böyük, Engle-Granger z-statistic nəticələrinə görə isə *p-qiyməti* 10 %-dən kiçikdir. Yəni, tau-statistic nəticələrinə görə "kointeqrasiya əlaqəsi yoxdur" sıfır hipotezi 10% əhəmiyyətlilik dərəcəsində rədd olunmur, Engle-Granger z-statistic nəticələrinə görə isə rədd olunur. Yəni bir test nəticəsini görə dəyişənlər arasında uzunmüddətli kointeqrasiya əlaqəsi var digərinə görə isə yoxdur. Bunu aydınlaşdırmaq üçün başqa

bir kointeqrasiya testi icra edilməsinə ehtiyac var. Buna görə, Parkın dəyişən əlavə etmə kointeqrasiya testi icra edilmişdir. və test nəticələri cədvəl 3-də verilmişdir.

**Cədvəl 2:** Engle-Granger kointeqrasiya testi nəticələri

| | **Qiymət** | **p-qiyməti** |
|---|---|---|
| tau-statistic | -2. 916729 | 0. 3612 |
| z-statistic | -19. 04826 | 0. 0776 |

**Qeyd:** dəyişən - $\ln(İNV)_t$. Sıfır hipotezi – *dəyişənlər arasında kointeqrasiya əlaqəsi yoxdur*; Optimal gecikmə ölçüsü Schwarz kriteriyası əsasında maksimum 2 period gecikmə asılı olmaqla seçilib;

Parkın dəyişən əlavə etmə yanaşması testlərin nəticələrinə görə bütün hallarda 5 %- dən böyük olmuşdur. Ümumilikdə desək , "kointeqrasiya əlaqəsi mövcuddur" sıfır hipotezi 5 % əhəmiyyətlilik dərəcəsində rədd edilmir. Belə izah etmək olar ki, dəyişənlər arasında uzunmüddətli dövrdə kointeqrasiya əlaqəsi mövcuddur.

**Cədvəl 3:** Parkın dəyişən əlavə etmə kointeqrasiya testi nəticələri

| | **Qiymət** | **df** | **p-qiyməti** |
|---|---|---|---|
| Ki-kvadratı | 2.475043 | 2 | 0.2901 |

**Qeyd:** asılı dəyişən - $\ln(İNV)_t$. Sıfır hipotezi – *dəyişənlər arasında kointeqrasiya əlaqəsi vardır*; ***, ** və * sıfır hipotezinin müvafiq olaraq 1%, 5% və 10% əhəmiyyətlilik dərəcəsində rədd olunduğunu göstərir; Optimal gecikmə ölçüsü Schwarz kriteriyası əsasında maksimum 2 period gecikmə olmaqla seçilib;

Kointeqrasiya testi olaraq istifadə olunan Engle-Granger və Parkın dəyişən əlavə etmə yanaşmasının nəticələrinə əsasən qiymətləndirilən reqressiya tənliklərini uzunmüddətli dövr tənliyi kimi qəbul edərək şərh vermək olar. Cədvəl 4-də FMOLS metodu istifadə olunmaqla əldə olunan uzunmüddətli dövr üzrə elastiklik əmsalları təsvir olunmuşdur. Daha sonra isə Cədvəl 5 və 6-da sırası ilə DOLS və CCR metodlarının nəticələri təqdim edilmişdir. Bu isə nəticələrin etibarlılığı və dəqiqliyi üçün çox vacib hesab olunur. Metodologiya hissəsində əks olunduğu kimi əsasən FMOLS metoduna görə ətraflı izah ediləcək. Bununla yanaşı , bütün

digər metodlara görə əldə edilən əmsallarla bağlı vahid fikir söyləmək mümkündür. Bütün modellərdə vergi gəlirlərini ifadə edən sərbəst dəyişənin əmsalı nəzəriyyə ilə də gözlənildiyi kimi mənfi və statistik olaraq əhəmiyyət kəsb edir. Bununla yanaşı əldə edilən əmsallar bir-birinə çox yaxın nəticədir.

**Cədvəl 4.** FMOLS qiymətləndirmə nəticələri

| Dəyişən | Əmsal | t-statistik | p-qiyməti |
|---|---|---|---|
| T | -0. 19*** | -3. 346 | 0. 00 |
| *Sabit* | 21. 44 | 70. 608 | 0. 00 |

Qeyd: Asılı dəyişən; İNV. Qiymətləndirmə periodu 1995-2021.

**Cədvəl 5.** DOLS qiymətləndirmə nəticələri

| Dəyişən | Əmsal | t-statistik | p-qiyməti |
|---|---|---|---|
| T | -0. 18 | -1. 792 | 0. 08 |
| *Sabit* | 21. 47 | 42. 35 | 0. 00 |

Qeyd: Asılı dəyişən; İNV. Qiymətləndirmə periodu 1995-2021.

**Cədvəl 6.** CCR qiymətləndirmə nəticələri

| Dəyişən | Əmsal | t-statistik | p-qiyməti |
|---|---|---|---|
| T | -0. 18*** | -2. 956 | 0. 00 |
| *Sabit* | 21. 48 | 63. 46 | 0. 00 |

Qeyd: Asılı dəyişən; İNV. Qiymətləndirmə periodu 1995-2021.

Qiymətləndirmə nəticələri göstərir ki, digər dəyişənlər sabit qalarsa bir vergi gəlirləri artarsa 1% artarsa investisiyalar 0. 19% azalar. Yuxarıda qeyd olunan təhlil metodlarının tətbiqi nəticəsində belə qənaətə gəlmək olar ki , vergi faizləri artdıqca investisiya gəlirlərinə mənfi təsir göstərir.Vergi faiz dərəcələrinin artmasl birbaşa investisiya gəlirlərinin aşağı düşməsinə səbəb olur.İnvestisiya gəlirlərinin artması üçün vergi faiz dərəcələri aşağı salınmalı , vergi güzəştləri tətbiq edilməlidir.

# NƏTİCƏ

Son zamanlarda əksər ölkələrdə investisiya həcminin artması iqtisadi əlaqələrin güclənməsi və inkişaf etdirilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edir.Azərbaycanda investisiya əlaqələri olduqca güclü təşkil olunmuşdur. Bunun üçün dövlət proqramları və aidiyyatı strukturlar müntəzəm şəkildə fəaliyyət göstərirlər. Məlumdur ki, birdən-birə investisiya qoyuluşlarının həcminin artırılması mümkün deyildir, ilk olaraq investisiya ediləcək ölkənin yerləşdiyi ərazidə regional sabitliyin mövcudluğu , siyasi-iqtisadi əlaqələrin mövcud vəziyyəti ,investisiya ediləcək sahələrin inkişaf etdirilməsi üçün həmin ərazilərin perspektivliyi, dövlət dəstəyinin olması , vergi güzəştlərinin olması , vergi təşviqlərinin və faiz dərəcələrinin aşağı salınması əsas vacib məsələlərdən hesab olunur. Hər bir dövlət vergi tənzimlənməsi yolu ilə investisiyanın inkişafını analiz etməli , bu mühitdə yarana biləcək iqtisadi prosesləri təhlil edərək ortaya çıxa biləcək problemlərin qarşısını almaqdan ibarətdir. Digər ölkələrlə müqayisə apardıqda ölkəmizdə vergi güzəştlərinin tətbiq edilməsi üst səviyyədədir. Belə ki qeyd etmək lazımdır ki , ölkəmizə investisiya yatırımı edən xarici və yerli investorlara dövlət dəstəyi hər zaman yüksək səviyyədə olmuşdur. Xarici investisiya axınlarını ölkəmizə cəlb etməkdən ötəri Azərbaycan dövlətinin müəyyənləşdirdiyi bir çox vergi güzəştləri mövcuddur. Belə ki , ölkəmizə investisiya qoyuluşu edən müəssisələrin texnoloji avadanlıqlarının gətirilməsi zamanı 7 il müddətində gömrük vergisindən azad edilir , əldə etmiş olduğu gəlirin 50 % faizi 7 il müddətində gəlir vergisindən tamamilə azad edilir, 7 il müddətində Əlavə Dəyər Vergisindən və torpaq vergisindən azad edilirlər. Qeyd edilən bu güzəştlərlə yanaşı , maliyyələşmə prosesinə də dəstək olur. Digər ölkələrlə müqayisə aparan zaman belə qənaətə gəlmək olar ki , ölkəmizdə bir çox vergi növlərində faiz dərəcələri aşağı səviyyədədir. Xüsusən də investisiya qoyuluşuna yönəlik investorlara xüsusi vergi güzəştləri tətbiq olunur. Hər bir ölkə investisiya gəlirlilik həcminin artırılması üçün müəyyən təkliflər paketi hazırlayır , vergi güzəştləri tətbiq edirlər. Vergi siyasətini düzgün təyin etmək mühüm məsələlərdəndir. Vergi faizləri nə çox aşağı olmamalı nə də investisiya qoyuluşuna maneə yaradacaq qədər çox olmamalıdır.Əgər vergi dərəcələri və faizləri çox olarsa investisiyanın inkişafına mənfi təsir göstərəcək.Bu da investisiya qoyuluşu edən investorların maraqlarına uyğun gəlməyəcəkdir. İnvestisiya cəlbediciliyinin artırılmasında vergi siyasətinin böyük əhəmiyyəti vardır. Bir ölkəyə investisiya qoyuluşu etməzdən əvvəl ilk olaraq həmin ölkənin vergi sistemi təhlil olunur , mənfi və müsbət xüsusiyyətləri analiz edilərək təhlil edilir.Son illərdə vergi sisteminə edilən dəyişikliklər araşdırılır.Əsaslandırılmış şəkildə tətbiq olunan vergi güzəştləri investisiya fəaliyyətinin inkişafına və formalaşmasına əsaslı təkan verir.Əksər Avropa ölkələrinə nəzər salsaq görərik

ki, həmin ölkələrdə tətbiq edilən vergi güzəştləri birbaşa investisiya mühitinə yönəlikdir.Yuxarıda əks olunan məlumatların izahından görünür ki , vergi və investisiya əlaqəsi güclü bir əlaqədir.Bu iki əlaqə paralel şəkildə aparılmalıdır.Vergi faizlərinin artırılması ilə əldə edilən cüzi gəlir əvəzinə , vergi faizləri aşağı salınmalı buradan itirilən vergi gəlirləri investisiya hesabına rahat şəkildə bərpa oluna bilir.İnvestisiya yatırımı üçün təkcə vergi faizlərinin aşağı salınması həll edici olmur , eyni zaman da həmin ərazsinin geosiyasi vəziyyəti analiz edilməli,bazara girişinin hansı səviyyədə olması ,daxili təlabatla yanaşı xarici təlabatı ödəyə biləcəkmki  və sairə suallara cavab olunmalıdır.Tədqiqat zamanı bir çox metodlardan istifadə edilərək müəyyən nəticəyə gəlinmişdir. Həmin metodlara FMOLS ,DOLS ,CCR , ADF aiddir. Dikey-Fullet test üsulundan istifadə edilərək alınan nəticələrə əsasən bütün göstəricilər birinci tərtib fərqlə stasionardır- yəni 1-dir. Bununla yanaşı kointeqrasiya əlaqsəni FMOLS metodu ilə də yoxlanılıb. Bu zaman Engle-Granger z- statistik nəticəsinə əsasən p-nin dəyəri 10 % -dən kiçik müəyyənləşdirilmişdir.Engle-Granger tau statistikasına görə isə p – nin dəyəri 10 % -dən böyükdür.Nəticə olaraq dəyişənlər arasında uzunmüddətli kointeqrasiya əlaqəsi var , digərinə görə isə mövcud deyil. Dəyişənlər daxilində DOLS və CCR metodundan da istifadə edilmiş, müvafiq uyğun rəqəmlər alınmışdır.Metodların tətbiqi nəticəsində qeyd edə bilərik ki ,qiymətləndirmə nəticələrinə əsasən , digər dəyişənlər sabit qalarsa sadəcə vergi gəlirləri 1% artarsa investisiyalar 0.19% azalar.Bu da investisiya həcminin azalmasına gətirib çıxaracaqdır. Belə bir nəticə formalaşır ki , investisiya cəlbediciliyin artırılması üçün aşağıdakı təkliflər nəzərə alınmalıdır.

1. Düzgün vergi siyasətinin tətbiqi , vergi nəzarətinin düzgün icra edilməsi , vergi güzəştlərinin tətbiqi.

2. İnvestisiya qoyuluşu ediləcək sahənin ərazi olaraq düzgün dəyərləndirilməsi , düzgün strategiyanın tətbiqi

3. İnvestisiya qoyuluşu ediləcək ərazinin regional sabitliyinin olması

4. Dövlət tərəfindən maliyyələşdirmə prosesinə dəstəyin verilməsi

5.Vergi qanunvericiliyinə tez-tez dəyişikliklərin edilməməsi

6.Azad İqtisadi Zonalar yaradaraq həmin ərazilərdə fəaliyyət göstərən müəssisələrin fəaliyyətinin dəstəklənməsi üçün dövlət tərəfində subsidiyaların verilməsi

## İstifadə olunmuş ədəbiyyat siyahısı


1 İnna İrtışçeva , İrina Kramarenko , Svitlana Şults , Katerina Blişçuk , Nataliya Hrışina , Nazariy Popadynets , Iryna Dubynska , Olena İşçenko , Daria Krapyvina (1998). Creating a favorable investment environment for economic development Page 773-780

2. Theories and Strategies (2020) Understanding Investments page 47

3. Naima Khashimova, Barno Tillaeva, Barno Razzakova (2020) Essence Of Investment Potential And Patterns Of Investment Fields In The Economy page 12

4. Ertan SEVİNÇ (2022). YATIRIM TEŞVİKLERİNİN ULUSLARARASI TİCARET VE DOĞRUDAN YABANCI YATIRIMLAR ÜZERİNDEKİ ETKİLERİ seh 10

5. Somarajah M. (1994) The International Law on Foreign Investments. Cambridge, . səh 78

6. Ritika Muley (2013) Economic Effects of Taxation: Top 6 Effects Page 3

7. Mediterranean Journal of Social Sciences MCSER Publishing, Rome-Italy Vol 6 No 3 S6 June 2015, səh1

8. AZərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Dövlət İnvestisiya mühiti səh 2

9. Social Value UK, Coheu R. (2020) Gov. UK, Big Society Capital, Bridges fund Managament, page 3

10. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi

11. Xarici İnvestisiyanın Qorunması Haqqında AZƏRBAYCAN RESPUBLİKASINIM QANUNU, 15 yanvar 1992

12. Aleksandr Klemm (2010)Beynəlxalq Vergi və Dövlət Maliyyəsi , C. 315-336

13. Biznes Vergi Təşviqlərinin Səbəbləri, Faydaları və Riskləri (2009)

14. Güner Koç Aytekin (2019) Doğrudan Yabancı Yatırımlar DYY , Belirleyicileri ve Ekonomik Etkileri, seh 264

15. UNCTAD (2013) United Nations Conference on Trade and Development , World Investment Report Database, page 13

16. R. Goncharova (2021)ANALYSIS OF THE TAX BURDEN IN THE QUALITY ASSESSMENT SYSTEM OF THE STATE TAX POLICY. Page 65

17. Tax Revenue versus Tax Rates- Laffer Curve

18 Ritika Muley (2013).Economic Effects of Taxation: Top 6 Effects

19. Alexander Trepelkov ,Marcio Verdi (2018).DESIGN AND ASSESSMENT OF TAX INCENTIVES IN DEVELOPING COUNTRIES SELECTED ISSUES AND A COUNTRY EXPERIENCE .Page 8

20. Vergilər--- Sosial-İqtisadi Online Qəzet

21. Xətai Alıyev (2022 )"EViews" Tətbiqli Ekonometrika , səh 272-277

22. Ziyad Səmədza (2015) Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu ,səh 115

23. Loan-Alin Nistor, Dragoş Păun Universitatea Babeş-Bolyai, Romania TAXATION AND ITS EFFECT ON FOREIGN DIRECT INVESTMENTS – THE CASE OF ROMANIA

24 Qarayev İmran Əliyar (2018) Azərbaycan Respublikasının vergi sistemi və siyasəti. səh 18

25. DESIGN AND ASSESSMENT OF TAX INCENTIVES IN DEVELOPING COUNTRIES SELECTED ISSUES AND A COUNTRY EXPERIENCE United Nations New York, 2018, səh 9

26. ANALYSIS OF THE TAX BURDEN IN THE QUALITY ASSESSMENT SYSTEM OF THE STATE TAX POLICY. January 2021 , səh 65, R. Goncharova

27. Dickey, D. A. and Fuller W. A. (1981), Likelihood Ratio Statistics for Autoregressive Time Series with a Unit Root, *Econometrica*, 49(4), 1057-1072.

28. Stock J. H. , Watson M. (1993), A simple estimator of cointegrating vectors in higher order integrated systems. *Econometrica*, 61, 783-820.

29. Narayan P. K. (2004), An econometric model of tourism demand and a computable general equilibrium analysis of the impact of tourism: the case of the Fiji Islands / *PhD thesis, Department of Economics*, Monash University, Melbourne, Australia,

30. Stock J. H. , Watson M. W. *Introduction to econometrics*. Boston: Addison Wesley, 2003.

31. Phillips P. C. B. , HansenB. E. Statistical inference in instrumental variables regression with I (1) Processes. *Review of Economics Studies*, 57, 99-125.

32. Park J. Y. Canonical cointegrating regressions , *Econometrica*, 60, 119-143

## İnternet resursları

33. https://corporatefinanceinstitute. com/resources/economics/laffer-curve

34. https://www. tutor2u. net/economics/reference/laffer-curve

35. https://www.academia.edu/38153958/%C4%B0qtisadiyyat%C4%B1n_d%C3%B6vl%C9%99t_t%C9%99nziml%C9%99nm%C9%99sind%C9%99_vergil%C9%99rin_rolu
36. https://vergiler.az/news/taxes/19669.html
37. https://president.az/az/articles/view/26765
38. https://ikisahil.az/post/378351-gelen-ilin-vergi-guzeshtleri-ondan-kimler-ve-hansi-saheler-yararlana-bilecekler
39. http://www.taxes.gov.az/
40. https://fed.az/az/maliyye/bu-il-azerbaycan-iqtisadiyyatina-en-cox-yatirim-eden-olkeler-aciqlandi-top10-108648
41. https://tedris.taxes.gov.az/assets/upload/files/Konfrans-2015-total.pdf
42. https://www.investaz.az/blog/birjalarla-bagli-en-yaxsi-6-kitab/
43. https://azkurs.org/muhazire-metnleri-tertibciler-mecid-ismixanov-refiqe-bextiyaro.html?page=7
44. https://az.birmiss.com/empirik-t%C9%99dqiqat-metodlari/
45. https://www.investing.com/
46. https://www.cairn.info/revue-reflets-et-perspectives-de-la-vie-economique-2012-3-page-129.htm
47. https://www.afdb.org/fileadmin/uploads/afdb/Documents/Publications/WPS_No._310_Tax_Policy__Foreign_Direct_Investment_and_Spillover_Effects.pdf
48. https://agroeconomics.az/az/article/3/article/?p=11
49. https://www.abacademies.org/articles/the-effect-of-business-and-investment-procedure-taxation-and-infrastructure-on-the-investment-attractiveness-the-moderating-role-o-14571.html
50. https://taxfoundation.org/economic-growth-opportunity-tax-reforms/
51. https://www.google.com/search?rlz=1C1GCEA_enAZ1032AZ1032&sxsrf=APwXEde901lad4dd5WbwO0aG7wIh_7jUQw:1686491476178&q=Advantages+of+tax+incentives+for+businesses&sa=X&ved=2ahUKEwjRruqqrrv_AhXjoosKHaRsAz4Q1QJ6BAgzEAE&biw=684&bih=706&dpr=1.25
52. https://www.imf.org/external/pubs/ft/issues/issues27/

53. https://www. google. com
54. https://www. azerbaijans. com/content_1614_az. html
55. https://www. azerbaijans. com/content_1614_az. html Azərbaycan İnvestisiya Mühiti səh 3
56. https://www. azerbaijans. com/content_1614_az. html ( Azərbaycan İnvestisiya Mühiti) 2021 -ci il, səh 4
57. https://www. stat. gov. az/
58. Azərbaycan Respublikası Sitatistika Komitəsi, səh 3, https://www. stat. gov. az/
59. https://xalqqazeti. com/pdf/xalq%2012%20mar%20OPT. pdf
60. https://corporatefinanceinstitute. com/resources/economics/laffer-curve
61. https://www. tutor2u. net/economics/reference/laffer-curve
62. https://vergiler. az/news/taxes/19669. html ( Azərbaycan Respublikası Vergilər Nazirliyi)
63. https://president. az/az/articles/view/26765
64. https://ikisahil. az/post/378351-gelen-ilin-vergi-guzeshtleri-ondan-kimler-ve-hansi-saheler-yararlana-bilecekler
65. http://www. taxes. gov. az/
66. https://fed. az/az/maliyye/bu-il-azerbaycan-iqtisadiyyatina-en-cox-yatirim-eden-olkeler-aciqlandi-top10-108648
67. . https://tedris. taxes. gov. az/assets/upload/files/Konfrans-2015-total. pdf
68. . https://www. investaz. az/blog/birjalarla-bagli-en-yaxsi-6-kitab/
69. https://azkurs. org/muhazire-metnleri-tertibciler-mecid-ismixanov-refiqe-bextiyaro. html?page=7
70. https://az. birmiss. com/empirik-t%C9%99dqiqat-metodlari/
71. https://www. investing. com/
72. https://www. cairn. info/revue-reflets-et-perspectives-de-la-vie-economique-2012-3-page-129. htm
73. https://www. afdb. org/fileadmin/uploads/afdb/Documents/Publications/WPS_No. _310_Tax_Policy__Foreign_Direct_Investment_and_Spillover_Effects. pdf
74. https://agroeconomics. az/az/article/3/article/?p=11

75. https://www. abacademies. org/articles/the-effect-of-business-and-investment-procedure-taxation-and-infrastructure-on-the-investment-attractiveness-the-moderating-role-o-14571. html

76. https://taxfoundation. org/economic-growth-opportunity-tax-reforms/

77. https://www. google. com/search?rlz=1C1GCEA_enAZ1032AZ1032&sxsrf=APwXEde901lad4dd5WbwO0aG7wIh_7jUQw:1686491476178&q=Advantages+of+tax+incentives+for+businesses&sa=X&ved=2ahUKEwjRruqqrrv_AhXjoosKHaRsAz4Q1QJ6BAgzEAE&biw=684&bih=706&dpr=1. 25

78. https://www. imf. org/external/pubs/ft/issues/issues27/